KHAZAR REVIEW

# XƏZƏR XƏBƏR

№ 417 May 2022



AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org



# İRAN MƏDƏNİYYƏT VƏ İSLAM İRŞADI NAZİRİNİN MÜŞAVİRİ XƏZƏR UNİVERSİTETİNDƏ

# ADVISER TO MINISTER OF CULTURE AND ISLAMIC GUIDANCE OF IRAN

2022 - ci il mayın 17-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı Azərbaycanda rəsmi səfərdə olan İran İslam Respublikasının mədəniyyət və islam irşadı nazirinin müşaviri Abuzər İbrahimi Torkman`ı qəbul etdi. A.İ.Torkman H.İsaxanlını səmimi salamlayaraq, Azərbaycana səfəri haqqında danışdı. O, Xəzər Universitetini ziyarət etməsindən və səmimi qəbuldan məmnunluğunu dilə gətirərək, H. İsaxanlıya Firdovsinin əsərlərini təqdim etdi.

H.İsaxanlı da maraqlı görüş və ədəbi fikir mübadiləsinə görə iranlı qonağa təşəkkürünü bildirdi və ona öz kitablarından bir neçəsini hədiyyə verdi.

Görüşdə İran İslam respublikasının Bakıdakı Mədəniyyət Mərkəzinin rəhbəri Ali Purmərcan və Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli iştirak etdi.

On May 17, 2022, Professor, Academician Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, received Abuzar Ebrahimi Torkman, Adviser to the Minister of Culture and Islamic Guidance of the Republic of Iran, who is on an official visit to Azerbaijan. A.I. Torkman cordially greeted H. Isakhanli, and spoke about his visit to Azerbaijan. Expressing satisfaction with his visit to Khazar University, he thanked H.Isakhanli for the warm welcome and presented him with Firdovsi's works.

H.Isakhanli also thanked the Iranian guest for an interesting meeting and literary exchange and gave him some of his books.

The meeting was attended by Ali Purmarjan, Chairman of the Cultural Center of the Islamic Republic of Iran in Baku, and Alovsat Amirbayli, Director of Public Relations and Media at Khazar University.



# XƏZƏR UNİVERSİTETİ SOCAR VƏ ONUN TƏRƏFDAŞLARI İLƏ BİRGƏ "İNKİŞAF İQTİSADİYYATI AKADEMİYASI" LAYİHƏSİNİ HƏYATA KEÇİRƏCƏK

# KHAZAR UNIVERSITY TO IMPLEMENT "DEVELOPMENT ECONOMICS ACADEMY" PROJECT TOGETHER WITH SOCAR AND ITS PARTNERS

2022-ci il mayın 18-də SOCAR və onun Cənubi Qafqaz Boru Kəməri (CQBK) şirkətindəki tərəfdaşları ilə Xəzər Universiteti arasında "İnkişaf İqtisadiyyatı Akademiyası" layihəsinin başlanğıcını təsdiqləyən imzalama mərasimi baş tutub.

Layihənin əsas məqsədi Massaçusets Texnologiya İnstitutunun "Data, İqtisadiyyat və İnkişaf Siyasəti" MikroMagistr Proqramı üzrə 20 azərbaycanlı tələbənin ödənişsiz əsasda təhsil almasına töhfə verməkdir.

Müqavilәni "SOCAR Midstream"in icraçı direktoru Fuad Əhmədov və Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı imzaladı.

Tərəflər Azərbaycanın iqtisadi inkişafında müasir dövrün tələblərinə cavab verən yüksək ixtisaslı gənc mütəxəssislərin yetişdirilməsinin vacibliyini vurğulayıb, əməkdaşlığın davamlı olmasına inandıqlarını bildirdilər.

On May 18, 2022, a signing ceremony was held affirming the launch of the project "Development Economics Academy" between SOCAR and its partners in the South Caucasus Pipeline Company (SCPC) and Khazar University.

The main purpose of the project is to commit to the free education of 20 selected students who will gain an opportunity to join the Massachusetts Institute of Technology's (MIT) "Data, Economics and Development Policy" MicroMaster Program.

The Contract was signed by the Executive Director of SOCAR Midstream, Fuad M. Ahmadov and the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, Professor, Academician Hamlet Isakhanli.

Both sides emphasized the importance of fostering a generation of young experts specializing in data based economic analysis for the development of Azerbaijani economy and expressed their hope for the continuity of their cooperation.



# İÇİNDƏKİLƏR

Xəzər Universitetində Nailə xanım Mədəniyyət Mərkəzinin açılışı ......................6
Görkəmli pedaqoq Nailə xanım İsayevanın xatirəsinə həsr olunmuş ədəbi-musiqili yubiley tədbiri ......................8
Xarici Dillər Təmayüllü Gimnaziyanın müəllim kollektivi və şagirdləri "Xəzər"də ......................12
"Mövlana" şeir məclisinin növbəti yığıncağı......................13
"Xəzər"in əməkdaşları Manisa Celal Bayar Universitetində ......................15
Universitetdə Ramazan bayramı süfrəsi ......................17
"Xəzər"in rektoruna Manisa Celal Bayar Universitetinin hədiyyəsi təqdim olundu ......................18
Elmi şuranın iclası......................20
Sağlamlıq və çirklənmə üzrə fəaliyyət planının müzakirəsi ......................21
"Bir Könüllü" "Xəzər"in tələbələri üçün məlumat sessiyası keçirdi ......................22
Xəzər Universitetində 2-ci Beynəlxalq Kakao, Qəhvə və Çay Asiya Konqresi keçirildi ......................24
Xəzər Universitetini təmsil edən "Glory" 1-ci yeri tutdu......................32
"Xəzər"in komandası İntellektual turnirin qalibi oldu ......................33
Bank əməkdaşları Xəzər Universitetində......................34
AMEA Nizami adına Ədəbiyyat İnstitutunun xəbərləri......................38
*Hamlet İsaxanlı*. Gəncə lövhələri və əsgərlik......................40
*Исмихан Юсубов*. Переписка с литовским другом ......................58
Tələbələr proqramlaşdırma üzrə praktik biliklərini təkmilləşdirmişlər ......................64
Xəzər Universitetinin bir qrup əməkdaş və tələbələri Erasmus+ PICASP layihəsi çərçivəsində Şəki şəhərinə səfərdə ......................65
"Qanun" nəşriyyatının "Xəzər"də sərgi - yarmarkası ......................70
Təhsil Tələbə Krediti Fondunun nümayəndələri ilə görüş......................71
Xəzər Universitetində "Milli Ardıcıl Tərcümə Müsabiqəsi" ......................72
Canon şirkətinin növbəti təqdimatı......................74
Elmi şuranın növbəti iclası......................75

1995-ci ilin yanvarından nəşr olunur

**Təsisçi:**
Xəzər Universiteti

**Baş redaktor:**
Hamlet İsaxanlı

**Baş redaktor müavini:**
Əlirza Balayev

**Foto:**
Multimedia Mərkəzi

Xəzər Universiteti

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+9912 323 93 13
(+9912 421 10 93
Mob.: (+99450) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Redaksiya heyəti:**
İsa Həbibbəyli
Alla Axundova
Şahin Fazil
Knyaz Aslan

**İngilis dilində mətnlərin redaktoru:**
Zamirə Qurbanova

**Kompüter tərtibatçısı:**
Günel Əkbərova

# CONTENTS


Opening of Naila Khanum Cultural Center at Khazar University ..............................6
Literary-musical Jubilee Event Dedicated to the Memory of Prominent Pedagogue Naila Khanum Isayeva ..............................9
The Teaching Staff and Students of the Foreign Languages Gymnasium are at Khazar University ..............................12
The Next Meeting of "Mevlana" Poetry Assembly ..............................13
Khazar University Staff Members at Manisa Jalal Bayar University ..............................15
Ramadan Holiday Table at the University ..............................17
Khazar University Rector was Presented with a Gift From Manisa Jalal Bayar University ..............................18
Meeting of Scientific Council ..............................20
Discussion of the Health and Pollution Action Plan ..............................21
"Bir" Volunteer held an Information Session for Khazar University Students .....22
The 2nd International Congress on Cocoa Coffee and Tea Asia held at Khazar University ..............................24
"Glory", Representing Khazar University, Took First Place ..............................32
Khazar University Team won the Intellectual Tournament ..............................33
Bank employees at Khazar University ..............................34
News of Institute of Literature named after Nizami of ANAS (*in azerbaijani*) ........38
*Hamlet Isakhanli.* Ganca Period and Millitary Servive (*in Azerbaijani*) ..............................40
*Ismikhan Yusubov.* Correspondence with a Lithuanian friend (*in Russian*) ..............................58
Students Improve Practical Knowledge on Programming ..............................64
A Group of Khazar University Staff Members, Students Visit Sheki Within Erasmus+ PICASP Project ..............................65
Exhibition-fair of "Qanun" Publishing House at Khazar University ..............................70
Meeting with Education Student Loan Fund Representatives ..............................71
"National Consecutive Interpretation Contest" at Khazar University ..............................72
Next presentation of the Company Canon ..............................74
Next Meeting of Scientific Council ..............................75



It has been published since January 1995

**Founder:**
Khazar University

**Editor-in-chief:**
Hamlet Isakhanli

**Associate editor:**
Alirza Balayev

**Photo:**
Multimedia Centre

Khazar University

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+9912 323 93 13
(+9912 421 10 93
Mob.: (+99450) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Editorial members:**
Isa Habibbayli
Alla Akhundova
Shahin Fazil
Knyaz Aslan

**Editor of English Texts:**
Zamira Gurbanova

**Computer graphics:**
Gunel Akbarova

# XƏZƏR UNİVERSİTETİNDƏ NAİLƏ XANIM MƏDƏNİYYƏT MƏRKƏZİNİN AÇILIŞI

# OPENING OF NAILA KHANUM CULTURAL CENTER AT KHAZAR UNIVERSITY





Xəzər Universitetində görkəmli pedaqoq, təhsil təşkilatçısı, "Dünya" məktəbinin qurucusu və rəhbəri olmuş Nailə xanım İsayevanın xatirəsini əbədiləşdirmək məqsədilə silsilə tədbirlər davam edir.

Mayın 27-də universitetdə Nailə xanım Mədəniyyət Mərkəzinin açılışı oldu. Tədbirdə "Dünya" məktəbi və Xəzər Universitetinin rəhbərliyi və əməkdaşları, qonqalar iştirak edirdilər.

Universitetin İdarəetmə və tələbə işləri üzrə prorektoru İsaxan İsaxanlı çıxış edərək, Nailə xanım İsayevanın xatirəsini əbədiləşdirmək üçün görülmüş işlərdən və həyata keçiriləcək tədbirlərdən danışdı. Qeyd etdi ki, neçə il əvvəl universitetdə mədəniyyət mərkəzinin yaradılmasının təşəbbüskarı məhz Nailə xanım olmuş və mərkəz bilavasitə onun rəhbərliyi və iştirakı ilə qurulmuşdur. Buna görə də, mərkəzin bundan sonra onun adını daşıması təbiidir.

Yenidən qurulmuş Nailə xanım Mədəniyyət Mərkəzinin tərtibçi-dizayneri, universitetin Dekorativ-Tətbiqi Sənət Muzeyinin direktoru, xalçaçı rəssam Afaq Kərimova çıxışında mərkəzin tərtibi haqqında ümumi məlumat verdi.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı lenti kəsərək, mərkəzin açılışını etdi.

A series of events are underway at Khazar University to perpetuate the memory of Naila khanum Isayeva, the prominent educator, educational organizer, founder and head of "Dunya" School.

On May 27, Naila khanum Cultural Center was opened at the university. The event was attended by the administrative and staff members of "Dunya" School and Khazar University, as well as guests.

Isakhan Isakhanli, Vice-Rector for Management and Student Affairs of the University, spoke about the work done and measures to be taken to perpetuate the memory of Naila khanum Isayeva. He noted that a few years ago, the initiator of the establishment of a cultural center at the university was Naila khanum, and the center was established under her leadership and participation. Therefore, it is reasonable that the center will bear her name from now on.

In her speech, Afag Karimova, the designer of the reconstructed Naila khanum Cultural Center, director of the University's Museum of Decorative and Applied Arts, and the carpet artist, gave general information about the center's design.

Professor, academician Hamlet Isakhanli, founder of Khazar University and chairman of the Board of Directors and Trustees, cut the ribbon and inaugurated the center.




Mərkəzə daxil olan iştirakçılara Afaq Kərimova Nailə xanımın fəaliyyətini dolğun əks etdirən fotostendlər, eksponatlar və şəxsi əşyaları haqqında ətraflı məlumat verdi və nümayiş etdirilən büstünün müəllifinin universitetin müəllimi, heykəltəraş Kamran Əsədovun olduğunu bildirdi.

İştirakçılar Nailə xanım İsayevanın anadan olmasının 75 illiyi ərəfəsində onun adını daşıyan Mədəniyyət Mərkəzindən xoş duyğularla ayrıldılar.

Afag Karimova informed the participants about the photo stands, exhibits and personal belongings of Naila khanum, which fully reflected her activities, and emphasized that the author of her bust was the lecturer of the university, sculptor Kamran Asadov.

On the eve of the 75th anniversary of Naila khanum Isayeva, the participants left the center named after her, with positive emotions.








# GÖRKƏMLİ PEDAQOQ NAİLƏ XANIM İSAYEVANIN XATİRƏSİNƏ HƏSR OLUNMUŞ ƏDƏBİ-MUSİQİLİ YUBİLEY TƏDBİRİ

**Mayın 27-də Xəzər Universitetinin Mərmər salonunda görkəmli pedaqoq, təhsil təşkilatçısı, "Dünya" məktəbinin qurucusu və rəhbəri olmuş Nailə xanım İsayevanın anadan olmasının 75 illiyinə həsr olunmuş ədəbi-musiqili tədbir keçirildi.**

**"Dünya" məktəbinin təşkilaçılığı ilə keçirilən tədbirdə "Dünya" məktəbinin və Xəzər Universitetinin rəhbərliyi və əməkdaşları, ölkənin görkəmli mədəniyyət, elm xadimləri və digər qonaqlar iştirak edirdilər.**

**Tədbirin musiqi hissəsini universitetin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, tanınmış pianoçu Zülfiyyə Sadıqovanın bədii rəhbərliyi ilə Xəzər Universitetinin Kamera orkestri idarə edirdi.**

**Tədbir aparıcı - Azərbaycan teatr və kino aktyoru, rejissor, bədii qiraətçi, "ARRI", "Altın Şafran", "Vaqif Səmədoğlu" mükafatları laureatı Kamran M. Yunisin ifasında Hamlet İsaxanlının şeirlərinin səslənməsi ilə başlandı.**

***(Ardı səh.10-da)***



# LITERARY-MUSICAL JUBILEE EVENT DEDICATED TO THE MEMORY OF PROMINENT PEDAGOGUE NAILA KHANUM ISAYEVA



On May 27, the Marble Hall of Khazar University hosted a literary and musical event dedicated to the 75th birthday of Naila khanum Isayeva, the prominent educator, educational organizer, founder and head of "Dunya" School.

The event, organized by "Dunya" School, was attended by the administrative and staff members of "Dunya" School and Khazar University, as well as prominent cultural, scientific figures and other guests.

The musical part of the event was conducted by the Khazar University Chamber Orchestra under the artistic direction of Zulfiya Sadigova, Honored Teacher and Honored Pianist, Head of the University's Music and Art Department.

The event began with the performance of Hamlet Isakhnli's poems performed by the presenter - Azerbaijani theater and film actor, director, art reader, laureate of "ARRI", "Golden Saffron", "Vagif Samedoglu" awards Kamran M. Yunis.

*(To be continued page 11)*





"Dünya" məktəbi Multimedia Mərkəzinin Hailə xanım İsayeva haqqında hazırladığı sənədli film və süjetlər nümayiş etdirildi. Filmdə görkəmli maarif xadiminin "Dünya" məktəbini qurması, ona rəhbərlik etməsi təsirli səhnələrlə dolğun əks olunmuşdu.

Sonra "Dünya" məktəbinin şagirdləri məktəbin himnini və mahnı ifa etdilər, rəqs məharətlərini göstərdilər.

Xalq artisti Xuraman Qasımova, riyaziyyat üzrə elmlər doktoru, əməkdar müəllim, professor İlham Pirməmmədov, "Dünya" məktəbinin əməkdaşı Rita Quliyeva çıxış edərək, Nailə xanım haqqında xatirələrini bölüşdülər.

Xalq artistləri Gülyanaq Məmmədova, İlqar Muradov, Xəzər Universitetinin müəllimi Məhsəti Cabbarova Nailə xanım İsayeva, Cavanşir Quliyev və digər bəstəkarların mahnılarını ifa etdilər.

Tədbir xoş əhval-ruhiyyə ilə başa çatdı.









A documentary film and videos about Naila khanum Isayeva prepared by" Dunya" School Multimedia Center were demonstrated. The film depicts the establishment and management of " Dunya" School by the prominent educator with impressive scenes.

Then the students of "Dunya" school sang the school anthem and song, showed their dancing skills.

Speaking at the event, People's Artist Khuraman Gasimova, Doctor of Mathematical Sciences, honoured teacher, professor Ilham Pirmammadov, the employee of "Dunya" School Rita Guliyeva shared their memories of Naila khanum. People's Artists Gulyanag Mammadova, Ilgar Muradov, Khazar University faculty member Mahsati Jabbarova performed songs by Naila khanum Isayeva, Javanshir Guliyev, and other composers.

The event ended in a good mood.







# XARİCİ DİLLƏR TƏMAYÜLLÜ GİMNAZİYANIN MÜƏLLİM KOLLEKTİVİ VƏ ŞAGİRDLƏRİ "XƏZƏR"DƏ

# THE TEACHING STAFF AND STUDENTS OF THE FOREIGN LANGUAGES GYMNASIUM AT KHAZAR UNIVERSITY

Aprelin 28-də Xəzər Universitetində Xarici Dillər Təmayüllü Gimnaziyanın müəllim kollektivi və şagirdləri ilə görüş keçirilmişdir. Dillər və ədəbiyyatlar departamentinin müəllimi Ülvi Babasoy universitetlə bağlı təqdimatla çıxış etmişdir. Universitetin rektoru, dosent İradə Xəlilova universitetin tədris prosesi haqqında geniş məlumat vermiş və şagirdlərə uğurlar arzulamışdır. Universitetin İctimai əlaqələr və media üzrə direktoru Ələvsət Əmirbəyli universitetdəki təlim-tərbiyə prosesinin mahiyyəti və keyifiyyəti barədə söhbət açmış, şagirdləri maraqlandıran suallara cavab vermişdir.

Psixologiya departamentinin koordinatoru Mələk Kərimova vaxtın idarə edilməsi, imtahan prosesində həyəcanın aradan qaldırılması və səmərəli çalışma metodları ilə bağlı seminar keçirmişdir. İngilis dili və ədəbiyyatı departamentinin koordinatoru Milana Abbasova şagirdlərin suallarını ətraflı cavablandırmışdır.

Sonda Xarici Dillər Təmayüllü Gimnaziyanın müəllim kollektivi və şagirdləri Xəzər Universitetinin maddi-texniki bazası ilə yaxından tanış olmuşlar.

On April 28, a meeting was held at Khazar University with the teaching staff and students of the Gymnasium of Foreign Languages. Ulvi Babasoy, the teacher of the Department of Languages and Literature, made a presentation on the university. Rector of the University, Associate Professor Irada Khalilova gave detailed information about the teaching process of the university and wished success to the students. Director of Public Relations and Media of the University Alovsat Amirbayli spoke about the essence and quality of the educational process at the university, answered questions of students.

Coordinator of the Department of Psychology Malak Karimova held a seminar on time management, elimination of anxiety in the examination process and effective working methods. Milana Abbasova, Coordinator of the English Language and Literature Department, answered students' questions in detail.

At the end, the teaching staff and students of the Gymnasium of Foreign Languages got acquainted with the material and technical base of Khazar University.

# "MÖVLANA" ŞEİR MƏCLİSİNİN NÖVBƏTİ YIĞINCAĞI

# THE NEXT MEETING OF "MEVLANA" POETRY ASSEMBLY

Xəzər Universitetinin nəzdində fəaliyyət göstərən Mövlana Ədəbi Fəlsəfi Araşdırmalar İnstitutunda (MƏFAİ) yaradılmış "Mövlana" şeir məclisinin növbəti yığıncağı aprelin 29-da universitetin Mərmər zalında baş tutdu. Tədbirdə universitetin tələbə-müəllim heyəti ilə yanaşı ölkənin digər qurumlarından da qonaqlar iştirak edirdi.

The next meeting of the Mevlana Poetry assembly, established at the Mevlana Institute for Literary and Philosophical Studies (MAFAI) at Khazar University, took place on April 29, in the University's Marble Hall. The event was attended by students and faculty members of the university, as well as guests from other institutions of the country.



İnstitutun direktoru dosent Nəzakət Məmmədli tədbiri açaraq, sözü məclisdə iştirak edən şairlərə verdi. Şairə Şəlalə Ana çıxışına Məhəmməd Füzulinin "Söz" qəzəli ilə başlayaraq, ardınca öz şeirlərini oxudu. Universitetin müəllimi şair Qardaşxan Əzizxanlı şeir məclisi haqqında öz fikirlərini bildirdi və öz şeirlərindən bir neçəsini qonaqların diqqətinə çatdırdı.

Tədbirdə, həmçinin, hazırda universitetdə təhsil alan istedadlı gənclər də iştirak edirdilər. Onlardan da bir neçəsi - Fərida Abdullayeva, Azər Hacıyev, Həsən Hüseynov öz şeirlərini oxudular. Sonra Nəzakət Məmmədli Qazi Bürhanəddin yaradıcılığından bir şeir nümunəsində poetika elmi haqqında məlumat verdi və öz şeirlərindən də bir neçəsini dinləyicilərə təqdim etdi.

Director of the Institute, Associate Professor Nazakat Mammadli opened the event and gave the floor to the poets participating in the meeting. The poetess Shalala Ana began her speech with Mohammad Fuzuli's ghazal "Word" and then recited her poems. Poet Gardashkhan Azizkhanli, the teacher at the university, expressed his views on the poetry assembly and presented some of his poems to the guests.

The event was also attended by the talented young currently studying at the university. Some of them - Farida Abdullayeva, Azer Hajiyev, Hasan Huseynov recited their poems. Then Nazakat Mammadli gave information about the science of poetry in the example of a poem by Gazi Burhanaddin and presented some of her poems to the audienc





# "ALUMNİ TALK": İLK SEMİNAR

Aprelin 29-da Xəzər Universiteti İnkişaf Mərkəzinin təşkilatçılığı ilə "Alumni Talk" adlı silsilə seminarların ilk seriyası keçirilmişdir.Tədbirin qonağı Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondunun İdarə Heyəti sədrinin müavini Eldar Həmidov idi.Qeyd edək ki, o, Beynəlxalq hüquq sahəsində bakalavr, sonra isə Biznesin idarə edilməsi üzrə magistr təhsilini Xəzər Universitetində almışdır.

Görüş İnkişaf Mərkəzinin rəhbəri Raziyə İsayevanın Eldar Həmidovu təqdim etməsi ilə başladı. Sonra Eldar Həmidov öz uğur hekayəsindən, Xəzər Universitetinin karyerasına olan təsirindən danışdı.O, tələbələrə öz tövsiyələrini verdi.

Görüşün növbəti hissəsində tələbələr suallarını ünvanladılar.

Seminara universitetin tələbə və əməkdaşları daxil olmaqla 100-dən çox iştirakçı qatılmışdı.

# "ALUMNI TALK": FIRST SEMINAR

On April 29, the first series of Alumni Talk seminars was organized by Khazar University Development Center. The guest of the event was Eldar Hamidov, Deputy Chairman of the Board of the Entrepreneurship Development Foundation of the Republic of Azerbaijan. He received a bachelor's degree in international law and a master's degree in business administration from Khazar University.

The meeting began with the introduction of Eldar Hamidov by the head of the Development Center Raziya Isayeva. Then Eldar Hamidov spoke about his success story and the impact of Khazar University his career. He gave his recommendations to the students.

In the next part of the meeting, students addressed their questions.

The seminar was attended by more than 100 participants, including students and staff members of the university.



# "XƏZƏR"İN ƏMƏKDAŞLARI MANİSA CELAL BAYAR UNİVERSİTETİNDƏ

# KHAZAR UNIVERSITY STAFF MEMBERS AT MANISA JALAL BAYAR UNIVERSITY

Aprelin 25-29-da Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Fərid Quliyev, Humanitar, təhsil və sosial elmlər fakültəsinin koordinatoru Tərlan Orucova və Beynəlxalq əlaqələr ofisinin koordinatoru Fatimə Vəliyeva Erasmus+ İşçi Heyətinin Mübadilə Proqramı çərçivəsində Türkiyənin Manisa Celal Bayar Universitetində (MCBU) oldular.

On April 25-29, Farid Guliyev, Head of the Department of Political Science and Philosophy, Tarlan Orujova, Coordinator of the School of Humanities, Education and Social Sciences, and Fatima Valiyeva, Coordinator of the International Relations Office, visited Manisa Celal Bayar University (MCBU) within the Erasmus+ Staff Exchange Program.



Səfər zamanı Xəzər Universitetinin əməkdaşları MCBU-nun Muradiyə kampusunda universitetin rektoru Prof.Dr. Ahmet Ataç, Beynəlxalq əlaqələr ofisinin əməkdaşları, İqtisadiyyat və idarəetmə fakültəsinin Siyasi elmlər və beynəlxalq əlaqələr departamentinin rəhbəri və müəllim heyəti ilə görüşlərdə iştirak etdilər. Proqram ərzində iki təhsil müəssisəsi arasında tərəfdaşlıq əlaqələrinin və akademik əməkdaşlığın gücləndirilməsi istiqamətində müzakirələr aparıldı. İştirakçılar proqram çərçivəsində kampusda tələbə və işçi heyəti üçün yaradılan şəraitlə yaxından tanış oldular.

Proqram daxilində Fərid Quliyev Siyasi elmlər və beynəlxalq əlaqələr departamentinin əməkdaşları və tələbələrinin iştirakı ilə "İqlim dəyişikliyi və bərpa olunan enerji mənbələrinə keçid" mövzusunda mühazirələr oxudu.

Proqramda Keniyanın Kenyatta Universitetinin və Əlcəzairin Algiers 2 Universitetinin nümayəndə heyətləri də iştirak etmişdir.

During the visit, Khazar University staff members met with the university's rector, Ahmet Atach, employees of the International Relations Office, head and faculty members of the Department of Political Science and International Relations of the School of Economics and Management on MCBU's Muradiye campus. During the program, discussions were held to strengthen partnerships and academic cooperation between the two educational institutions. The participants got acquainted with the conditions created for students and staff on the campus within the program.

Within the program, Farid Guliyev delivered lectures on "Climate change and the transition to renewable energy sources" with the participation of staff and students of the Department of Political Science and International Relations.

Delegations from Kenyatta University in Kenya and Algiers 2 University in Algeria also participated in the program.

BAKI MÜHƏNDİSLİK UNİVERSİTETİ

Dövlət Gömrük Komitəsinin Akademiyası

# PSİXOLOJİ XİDMƏT MƏRKƏZİNİN RƏHBƏRİ BEYNƏLXALQ ELMİ KONFRANSDA

# HEAD OF PSYCHOLOGICAL SERVICE CENTER AT INTERNATIONAL SCIENTIFIC CONFERENCE

Aprelin 29-30-da Bakı Mühəndislik Universiteti və Dövlət Gömrük Komitəsi Akademiyasının təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş Gənc Tədqiqatçıların VI Beynəlxalq Elmi konfrans keçirildi.

Konfransda Xəzər Universiteti Psixoloji Xidmət Mərkəzinin rəhbəri, Psixologiya departamentinin koordinatoru Mələk Kərimova "Psixoloqların terapevtik ünsiyyət bacarıqları necə formalaşdırılmalı?" tədqiqatı ilə bağlı çıxış etdi. Bu tədqiqatın məqsədi psixologiya ixtisasında təhsil alan tələbələrin nəzəri biliklərinin praktiki bacarıqlarla möhkəmləndirilməsi məqsədi ilə təşkil edilən "Psixoloji Konsultasiya" dərsinin mahiyyətini təhlil etmək və onların dərslə bağlı öyrəndikləri bacarıqları haqqında kəmiyyət tədqiqatının keçirilməsidir. Tədqiqat Xəzər Universitetinin bakalavr dördüncü kurs tələbələri (n=20) arasında 2021-2022-ci tədris ilində "Psixoloji Konsultasiya" dərsi zamanı aparılmışdır. Dərs "Mikro bacarıqlar təlimi"nə (İvey, 2007) əsaslanılaraq təşkil edilmişdir. Müəllif tədqiqatla bağlı keçirilən dərsin mahiyyətini və tədqiqat nəticələrini əsaslandıraraq, konfransda məruzə etdi.

Mələk Kərimova konfransda "Mediasiya prosesində ünsiyyətin psixoloji əsasları" mövzusu ilə də çıxış edib. O, Azərbaycanda 2021-ci ilin yanvar ayının birindən etibarən tətbiqi başladılan mediasiya prosesi və mediatorların peşə bacarıqlarının inkişaf etdirilməsi ilə əlaqədar danışıqların aparılması zamanı zəruri olan ünsiyyət bacarıqlarına toxunaraq, demokratik cəmiyyət quruculuğunda əhəmiyyətli yeri olan mediasiya prosesinin əsas məqsədləri, mediasiya prosesində ünsiyyətlə bağlı yaranan çətinliklər və mediatorun effektiv ünsiyyət qura bilmə bacarıqlarını formalaşdırması üçün nələrə diqqət edilməsi ilə əlaqəli məsələləri şərh etmişdir.

On April 29-30, Baku Engineering University and the Academy of the State Customs Committee organized the VI International Scientific Conference of Young Researchers dedicated to the 99th anniversary of national leader Heydar Aliyev.

At the conference, Malak Karimova, Head of Khazar University's Psychological Service Center and Coordinator of the Department of Psychology, delivered a speech on "How should psychologists' therapeutic communication skills be developed?". The purpose of this study is to analyze the essence of the course "Psychological Counseling", organized to strengthen the theoretical knowledge of students majoring in psychology with practical skills, and to conduct a quantitative study of the skills they learned in the course. The research was conducted among Khazar University's undergraduate fourth-year students (n = 20) during the "Psychological Counseling" course in the 2021-2022 academic year. The course is based on the "Micro Skills Training" (Ivey, 2007). The author spoke at the conference, substantiating the essence of the research lesson and the results of the research.3

Malak Karimova delivered a speech at the conference on "Psychological bases of communication in the mediation process." She spoke about the mediation process in Azerbaijan, which began on January 1, 2021, and the communication skills needed to negotiate the development of professional skills of mediators. commented on issues related to what to focus on in order to develop the mediator's ability to communicate effectively.

http://yric.az/



# UNİVERSİTETDƏ RAMAZAN BAYRAMI SÜFRƏSİ
# RAMADAN HOLIDAY TABLE AT THE UNIVERSITY

Mayın 2-də Xəzər Universitetinin yeməkxanasında yataqxana sakinləri üçün Ramazan bayramı süfrəsi təşkil olundu. Bayram süfrəsində yataqxanada yaşayan 70-dən artıq yerli və əcnəbi tələbələr iştirak etdilər.

İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli bayram süfrəsinə toplaşanları universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, professor, akademik Hamlet İsaxanlı və universitet rəhbərliyi adından bayram münasibətələ təbrik etdi. Beynəlxalq əlaqələr üzrə prorektor Vlad Vernygor Müqəddəs Ramazan bayramı və onun məramı haqqında əcnəbi tələbələrə məlumat verdi.

Bayram süfrəsi xoş əhval ruhiyyə ilə başa çatdı. Tələbələr bayram süfrəsinə görə universitetin təsisçisinə, rəhbərliyinə və əməkdaşlara təşəkkürlərini bildirdilər.

On May 2, Ramadan holiday dinner was organized for dormitory residents in the canteen of Khazar University. The holiday table was attended by more than 70 local and foreign students living in the dormitory.

Director of Public Relations and Media Alovsat Amirbayli congratulated those present at the holiday table on behalf of the founder of the university, chairman of the Board of Directors and Trustees, professor, academician Hamlet Isakhanli and the university administration. Vice-Rector for International Relations Vlad Vernygor informed foreign students about the holy holiday of Ramadan.

The holiday table ended in a good mood. The students thanked the founder, management and staff of the university for the holiday table.



# "XƏZƏR"İN REKTORUNA MANİSA CELAL BAYAR UNİVERSİTETİNİN HƏDİYYƏSİ TƏQDİM OLUNDU

# KHAZAR UNIVERSITY RECTOR WAS PRESENTED WITH A GIFT FROM MANISA JALAL BAYAR UNIVERSITY




Mayın 4-də Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova aprelin 25-29-da Erasmus+ İşçi Heyətinin Mübadilə Proqramı çərçivəsində Türkiyənin Manisa Celal Bayar Universitetində (MCBU) olmuş Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Fərid Quliyev, Humanitar, təhsil və sosial elmlər fakültəsinin koordinatoru Tərlan Orucova və Beynəlxalq əlaqələr ofisinin koordinatoru Fatimə Vəliyevanı qəbul etdi. Onlar səfər haqqında rektoru məlumatlandıraraq, MSBU-da rəhbərlik və əməkdaşlar tərəfindən universitetlə tanışlıq və müxtəlif görüşlər keçirməkdən ötrü əlverişli şərait yaradıldığını bildirdilər.

Sonra Fərid Quliyev Manisa Celal Bayar Universitetinin rektoru Prof. Dr.Ahmet Ataç tərəfindən göndərilən hədiyyəni rektora təqdim etdi. İradə Xəlilova "Xəzər"in işçi heyətinin işgüzar qonaqpərvərliklə qarşılandığına və hədiyyəyə görə təşəkkürünü bildirdi.

On May 4, the rector of Khazar University, Associate Professor Irada Khalilova, received Head of the Department of Political Sciences and Philosophy Farid Guliyev, Coordinator of the Faculty of Humanities, Education and Social Sciences Tarlan Orujova and Coordinator of the International Relations Office Fatima Valiyeva who visited Manisa Celal Bayar University (MCBU) in Turkey on April 25-29 as part of the Erasmus + Staff Exchange Program. They informed the rector about the visit and said that the management and staff of MCBU created favorable conditions for acquaintance with the university and holding various meetings.

Then Farid Guliyev presented the gift sent by the rector of Manisa Celal Bayar University Prof. Dr.Ahmet Ataç to the rector.

## "XƏZƏR"İN MƏZUNU MAGİSTRATURAYA QƏBUL İMTAHANINDA ƏN YÜKSƏK BAL TOPLAYIB




Dövlət İmtahan Mərkəzi ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına keçirilmiş qəbul imtahanının (II cəhd) nəticələrini elan etmişdir.

Xəzər Universitetinin bakalavriat pilləsini kompüter mühəndisliyi ixtisası üzrə bitirmiş Tamerlan Abdullayev 99 balla ölkə birincisi olub.

Ölkənin bir sıra saytları bu barədə xəbər yayımlamışlar:

*https://tehsil.biz/news/az/39157/Magistr-rekordusunun-hdfi-bykdr-AB-da-oxumaq-ans-var*
*https://qaziler.az/news/sience/123461-magistratura-imtahaninda-en-yuksek-bal* və s.

## KHAZAR UNIVERSITY GRADUATE ACHIEVES THE HIGHEST SCORE IN THE MASTER'S ENTRANCE EXAM

The State Examination Center has announced the results of the entrance exam (II attempt) for masters of higher education institutions and ANAS.

Tamerlan Abdullayev, who graduated from Khazar University with a bachelor's degree in computer engineering, was the first in the country with 99 points.

A number of country websites published news about it:

*https://tehsil.biz/news/az/39157/Magistr-rekordusunun-hdfi-bykdr-AB-da-oxumaq-ans-var*
*https://qaziler.az/news/sience/123461-magistratura-imtahaninda-en-yuksek-bal* etc.

## "XƏZƏR"İN ƏMƏKDAŞLARI MİNGƏÇEVİR VƏ GƏNCƏ ŞƏHƏRLƏRİNDƏ

Xəzər Universitetinin əməkdaşları Mələk Kərimova və Ülvi Babasoy universitetə tələbə cəlbi çərçivəsində mayın 4-5-də Mingəçevir ("Kür" Hazırlıq Kursları) və Gəncə ("Kəpəz" Hazırlıq Kursları) şəhərlərində ezamiyyətdə olmuşlar.

Psixologiya departamentinin koordinatoru Mələk Kərimova 300-dən çox abituriyentlə "Peşə seçimim və gələcəyim" mövzusunda seminar keçirmişdir. Həmçinin, vaxtın idarə edilməsi, imtahan prosesində həyəcanın aradan qaldırılması və səmərəli çalışma metodları ilə bağlı məsləhətlər vermişdir.

Dillər və ədəbiyyatlar departamentinin müəllimi Ülvi Babasoy universitet haqqında təqdimatla çıxış etmişdir. Sonda Mələk Kərimova və Ülvi Babasoy Xəzər Universiteti ilə bağlı suallara cavab vermişlər.

## KHAZAR UNIVERSITY STAFF MEMBERS IN MINGACHEVIR AND GANJA

Khazar University employees Malak Karimova and Ulvi Babasoy visited Mingachevir ("Kura" Preparatory Courses) and Ganja ("Kapaz" Preparatory Courses) on May 4-5, as part of their efforts to attract students to the university.

Coordinator of the Department of Psychology Malak Karimova held a seminar on "My career choice and future" with more than 300 enrolees. He also provided advice on time management, stress management during the exam process, and effective working methods.

The lecturer of the Department of Languages and Literature Ulvi Babasoy made a presentation about the university. In the end, Malak Karimova and Ulvi Babasoy answered questions about Khazar University.



# ELMİ ŞURANIN İCLASI

Mayın 6-da Xəzər Universiteti Elmi şurasının növbəti iclası keçirildi. İclası universitetin rektoru dosent İradə Xəlilova açaraq, gündəlikdəki məsələləri elmi şura üzvlərinin nəzərinə çatdırdı. Gündəlikdəki ilk iki məsələ ilə bağlı Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekanı Səidə Şərifova məlumat verdi. O, universitetin magistratura tələbələri və doktorantların dissertasiya mövzuları və elmi rəhbərlərinin təsdiqi ilə bağlı məlumatları iclas iştirakçılarının diqqətinə çatdırdı və məsələlər barədə müzakirələr aparıldı.

Sonra universitetin əcnəbi doktorantı Abdul-Rahman Balogunun fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiya işinin ilkin müzakirəsinin keçirilməsi haqqında məlumat verildi.

Daha sonra iclasın sədri Dillər və ədəbiyyatlar departamenin müəllimi Elza İsmayılovanın filologiya, habelə Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə təhsil alan tələbələr üçün hazırladığı "Koroğlu" dastanının Azərbaycan və Türkiyə variantları Avropada" adlı dərs vəsaitinin dərc olunması üçün təqdim edilməsi barədə iclas iştirakçılarına məlumat verdi və məsələ müzakirəyə çıxarıldı.

Cari məsələlərdə elmi nəşrlərlə bağlı beynəlxalq reytinq göstəricilərinin yaxşılaşdırılması ilə əlaqədar 2022-ci il üzrə Yol Xəritəsi haqqında şura üzvlərinə məlumat verildi, müvafiq bəndlərin icrası ilə bağlı departamentlərin üzərinə düşən öhdəliklər, hesabatların verilməsi tarixləri və s. haqqında müzakirələr aparıldı. Departamentlərə müvafiq tapşırıqlar verildi və məsələnin növbəti elmi şurada bir daha müzakirə edilməsi təklif olundu.

Elmi şuranın gündəliyində duran məsələlər barədə müsbət qərarlar qəbul edildi.

# MEETING OF SCIENTIFIC COUNCIL

On May 6, the next meeting of the Scientific Council of Khazar University was held.

The meeting was opened by the rector of the university, associate professor Irada Khalilova, who brought the issues on the agenda to the attention of the members of the scientific council. Saida Sharifova, Dean of the Graduate School of Science, Arts and Technology, informed about the first two issues on the agenda. She provided information about the dissertation topics and approval of the supervisors of master's and doctoral students of the university, and the issues were discussed.

Then it was reported that the preliminary discussion of the dissertation submitted by a foreign doctoral student of the university Abdul-Rahman Balogu for the degree of Doctor of Philosophy was held.

Then the chairman of the meeting informed the participants about the presentation of the textbook "Azerbaijani and Turkish versions of "Koroglu" epos in Europe prepared by Elza Ismayilova, the faculty member at the Department of Languages and Literature, for students majoring in philology, as well as Azerbaijani language and literature.

The members of the council were informed about the Road Map for 2022 in connection with the improvement of the international ranking of scientific publications on current issues, discussions were held on the responsibilities of the departments related to the implementation of the relevant items, the dates of reporting etc. The relevant instructions were given to the departments and it was suggested that the issue be discussed again at the next scientific council.

Positive decisions were made on the issues on the agenda of the Scientific Council.

GAHP
GLOBAL ALLIANCE ON HEALTH AND POLLUTION



# SAĞLAMLIQ VƏ ÇİRKLƏNMƏ ÜZRƏ FƏALİYYƏT PLANININ MÜZAKİRƏSİ

# DISCUSSION OF THE HEALTH AND POLLUTION ACTION PLAN

Mayın 6-da Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamentinin təşkilatçılığı ilə Sağlamlıq və Çirklənmə üzrə Global Alyansın (Global alliance on Health and Pollution-GAHP) Sağlamlıq və Çirklənmə üzrə Fəaliyyət Planının (The Health and Pollution Action Plan) müzakirəsi keçirilmişdir.

Müzakirələrdə Azərbaycanın müxtəlif dövlət təşkilatları, o cümlədən nazirlik və dövlət agentliklərinin, habelə qeyri - hökumət təşkilatlarının nümayəndələri iştirak etmişlər.

Xəzər Universitetinin rektoru İradə Xəlilova tədbir iştirakçılarını salamlayaraq, uğurlu iş arzulamışdır.

Tədbirdə Azərbaycanın əsas çirklənmə problemləri müzakirə olunmuş və bu problemlərin həll yolları axtarılmışdır. GAHP nümayəndəsi çıxış edərək, təklif olunan təmizləmə layihələri haqqında məlumat vermişdir.

İştirakçılar təklif olunan layihələrə münasibət bildirmiş və qərara alınmışdır ki, növbəti görüş 2022-ci ilin oktyabr ayında keçirilsin.

On May 6, the Global Alliance on Health and Pollution (GAHP) discussed the Health and Pollution Action Plan, organized by Khazar University's Department of Geography and the Environment.

Representatives of various state organizations of Azerbaijan, including ministries and state agencies, as well as non-governmental organizations took part in the discussions.

Rector of Khazar University Irada Khalilova greeted the participants and wished them success.

The main pollution problems of Azerbaijan were discussed at the event and solutions to these problems were sought. The GAHP representative spoke about the proposed clean-up projects.

The participants commented on the proposed projects and decided to hold the next meeting in October 2022.





## "BİR KÖNÜLLÜ" "XƏZƏR"İN TƏLƏBƏLƏRİ ÜÇÜN MƏLUMAT SESSİYASI KEÇİRDİ

## "BIR" VOLUNTEER HELD AN INFORMATION SESSION FOR KHAZAR UNIVERSITY STUDENTS

Mayın 6-da "Bir Könüllü" Tələbələrin Əməkdaşlığı İctimai Birliyi Xəzər Universitetinin tələbələri üçün məlumat sessiyası keçirdi.

Universitetin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli tədbiri açaraq, qonaqları təqdim edəndən sonra Birliyin sədri Ülvi Əlizadə rəhbərlik etdiyi təşkilatın missiyası, fəaliyyəti, son bir il ərzində gördüyü işlər, gələcək layihələri barədə məlumat verdi. Tədbirdə təşkilata üzv olma prosesi və könüllülük fəaliyyətinin üstünlüklərindən danışılıb, tələbələr arasında interaktiv oyunlar keçirilib.

Tədbirin yekununda tələbələrin könüllülük fəaliyyəti, onun yaratdığı imkanlar, qazandırdığı təcrübələr barədə suallar cavablandırılıb. Onlarla tələbə könüllülərin sırasına qoşulub.

Qeyd olunub ki, 27 mindən çox könüllü üzvə malik olan təşkilat 26 ali, 18 orta, 10 peşə təhsili müəssisəsini əhatə edir.

On May 6, the Bir Volunteer Student Cooperation Public Union held an information session for Khazar University students.

After Alovsat Amirbayli, Director of Public Relations and Media of the University, opened the event and introduced the guests, chairman of the Union Ulvi Alizadeh informed about the mission, activities, work done over the past year and future projects of the organization. The event discussed the process of joining the organization and the benefits of volunteering.

At the end of the event, questions were answered about students' volunteerism, the opportunities it creates, the experiences it brings. Dozens of students joined the ranks of volunteers.

It was noted that the organization, which has more than 27,000 volunteer members, covers 26 higher, 18 secondary and 10 vocational education institutions.






# XƏZƏR UNİVERSİTETİNDƏ ÇAY FESTİVALI HƏFTƏSİ

Mayın19-20-də Xəzər Universitetində II Beynəlxalq Cofe və Çay Konfransı keçiriləcəyi ilə əlaqədar mayın 16-20-də universitetdə Çay Festivalı Həftəsi elan olundu.

Həftə ərzində universitetin həyətində Azərçay şirkətinin milli geyimdə olan işçiləri tərəfindən hər gün səhər saat 08:30-dan axşam saat 18:00-a kimi pulsuz kofe və çay verildi.

Bununla yanaşı, şirkətin səyyar kofe paylayanı ofislərdə çalışan əməkdaşlara da xidmət göstərdi.

# TEA FESTIVAL WEEK AT KHAZAR UNIVERSITY




Regarding the Second International Coffee and Tea Conference to be held at Khazar University on May 19-20, Khazar University has announced May 16-20 (one week) as Tea Festival Week.

During this week, in the courtyard of the university, employees of Azerchay Company in national costumes will provide free coffee and tea service every day from 08:30 in the morning to 18:00 in the evening, which started on May 16.

In addition, the company's mobile coffee worker (with a samovar on his shoulder) will serve employees working in offices.




# XƏZƏR UNİVERSİTETİNDƏ 2-Cİ BEYNƏLXALQ KAKAO, QƏHVƏ VƏ ÇAY ASİYA KONQRESİ KEÇİRİLDİ

# THE 2ND INTERNATIONAL CONGRESS ON COCOA COFFEE AND TEA ASIA HELD AT KHAZAR UNIVERSITY

Mayın 19-20-də Xəzər Universitetində 2-ci Beynəlxalq Kakao, Qəhvə və Çay Asiya Konqresi keçirildi.

Konqres Xəzər Universiteti, Çinin Anhui Kənd Təsərrüfatı Universiteti və Dövlət Çay Bitkisi Biologiyası və İstifadəsi Aparıcı Laboratoriyası tərəfindən birgə təşkil olunmuşdu.

Konqres çay elmi və təhsilində dünya liderləri olan Anhui Kənd Təsərrüfatı Universiteti ilə Dövlət Çay Bitkisi Biologiyası və İstifadəsi Aparıcı Laboratoriyası arasında elmi tədqiqat layihələri üzrə əməkdaşlıq və tərəfdaşlıq çərçivəsində keçirildi.

Bu əməkdaşlığın əsası 2018-ci ildə Çinin Anhui Kənd Təsərrüfatı Universiteti və Dövlət Çay Bitkisi Biologiyası və İstifadəsi Aparıcı Laboratoriyasının təşkilatçılığı ilə Heifei şəhərində keçirilən 1-ci Beynəlxalq Kakao, Qəhvə və Çay Asiya konqresi zamanı qoyulmuşdu. Konqresin son günündə iki ölkə - Hindistan (Hindistan Dövlət Kənd Təsərrüfatı Nazirliyi) və Azərbaycan (Xəzər Universiteti) 2020-ci ildə növbəti Beynəlxalq Kakao, Qəhvə və Çay Asiya Konqresinin keçirilməsi üçün namizəd göstərildilər. Hər iki ölkənin nümayəndələri

On May 19-20, the 2nd International Congress on Cocoa Coffee and Tea Asia was held at Khazar University.

The congress is jointly organized by Khazar University, Azerbaijan, Anhui Agricultural University and State Key Laboratory Tea Plant Biology and Utilization of Anhui Province, China.

The congress is being conducted along with the cooperation and partnership agreement on scientific research projects between of the Anhui Agricultural University, and the State Key Lab of Tea Plant Biology and Utilization which are the world leaders in tea science and education.

The history of this cooperation has started in October 2018 during the first conference organized, by the State Key Laboratory Tea Plant Biology and Utilization, and Anhui Agricultural University of China in Hefei, China. On the last day of the congress, the two countries –the Ministry of Agriculture and Farmers' Welfare of India and Khazar University were shortlisted to host the Second International congress on Cocoa Coffee and Tea Asia 2020. Then Representatives from both countries delivered a speech about their




təşkilatları haqqında çıxış etdilər. Seçim komitəsi 2-ci konqresin keçirilməsi üçün Xəzər Universitetinin lehinə qərar verdi. 2019-cu ilin may ayında çinli ekspertlər çay elmi sahəsində əlaqələri genişləndirmək üçün Xəzər Universitetində oldular və 2-ci konqresin 2020-ci ildə keçirilməsi təyin olundu. Təəssüf ki, bütün dünyada tüğyan edən pandemiya səbəbi ilə konqres 2022-ci ilin may ayına təxirə salındı. Azərbaycanda, demək olar ki, yeni Covid yoluxmalarının olmamasına baxmayaraq, Çindəki vəziyyətə görə konqresin hibrid formada keçirilməsinə qərar verildi.

Konqresi Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova, universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri prof. akademik Hamlet İsaxanlı, 2-ci Beynəlxalq Kakao, Qəhvə və Çay Asiya Konqresinin sədri professor. Xiaochun Wan, Anhui Kənd Təsərrüfatı Universitetinin prezidenti prof. Tao Xia, Çin Xalq Respublikasının Azərbaycandakı Səfirliyinin müvəqqəti işlər vəkili Ding Tao, Anhui əyalətinin Elm və Texnologiya Departamentində Xarici Elmi və Texnoloji Əməkdaşlıq Şöbəsinin Direktoru Wenjun Dong salamlama nitqi ilə açdılar.

*(Ardı səh.26-da)*

organizations and a welcome speech for hosting the next conference. The selection committee voted for Khazar University to host the second conference. In May 2019, Chinese Experts Visited Khazar University for expanding cooperation in tea science and scheduled the 2nd Conference for 2020. Unfortunately, due to the Worldwide Pandemic situation, the conference was postponed to May 2022. Despite there being almost no Covid cases in Azerbaijan, a new large wave of infections nationwide arose these days in China. Therefore, together with colleagues from China, it has been decided to host the conference in its Hybrid form.

At the opening ceremony, welcoming addresses were delivered by Professor. Irada Khalilova, rector of Khazar University, Professor, Academici an Hamlet Isakhanlı, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, Prof. Xiaochun Wan, Chairman of CoCoTea Asia 2022, Professor. Tao Xia, President of Anhui Agricultural University, Charge d'Affaires Mr. Ding Tao, Embassy of the People's Republic of China in the Republic of Azerbaijan, Mr. Wenjun Dong, Director of Foreign Scientific

*(To be continued page 26)*




Çin, Azərbaycan, Türkiyə, İran, ABŞ, Rusiya, Cənubi Koreya, İrlandiya, Danimarka, Gürcüstan, Belçika, Almaniya, Birləşmiş Ərəb Əmirlikləri, Şri Lanka və Nigeriyadan 300-ə yaxın tədqiqatçı onlayn, yerli universitetlər və elmi tədqiqat institutlarından (Türkiyə, İran, Rusiya daxil olmaqla) 60-a yaxın tədqiqatçı konqresdə üzbəüz iştirak etdi.

Bundan başqa, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin nümayəndələri də konqresdə iştirak etdilər.

İki günlük konqresdə 51 təqdimat baş tutdu, 100-dən çox məruzə xülasəsi təqdim olundu.

İki günlük konfrans ərzində ASTRADE MMCdə Çay Festivalı Həftəsinə qoşularaq, "enerji kofe hell" içkisini tələbələrə və əməkdaşlara pulsuz təqdim etdi.

*(Ardı səh.29-da)*

in Science and Technology Department of Anhui province.

About 300 researchers from China, Azerbaijan, Turkey, Iran, USA, Russia, South Korea, Ireland, Denmark Georgia, Belgium, Germany, United Arab Emirates, Sri Lanka, and Nigeria participated online and 60 researchers from national universities and research institutions including speakers from Turkey, Iran, and Russia participated offline at the conference. Moreover, the representatives of the Food Safety Agency attended the congress.

51 speakers delivered their speeches over two days. More than 100 Abstracts have been submitted.

During the two days of the congress, AZTRADE MMC joined Tea Festival Week and also provided free Energy Coffee Hell to all students and staff.

*(To be continued page 29)*




Anhui Agricultural University
Khazar
University
Convention of this international academic Conference
on the extent of my all the account things



广东省农科院茶叶研究所分会场



南京农业大学分会场



青岛农业大学分会场



茶树生物学与资源利用国重室

西北农林科技大学分会场



中国农科院茶叶研究所分会场



浙江大学分会场



湖南农业大学分会场



茶树生物学与资源利用国重室

山东农业大学分会场



Kongresin bağlanış mərasimində Yekun Bəyanname təqdim olundu, orijinal və nəşr olunmamış məqalələrin beynəlxalq, açıq girişli, onlayn "İçki Bitki Tədqiqatı"jurnalında nəşr olunacağı elan edildi. Jurnalın linki: *https://www.maxapress.com/bpr*

Əlavə olaraq bildirildi ki, konqresdə iştirak edən müəlliflər kakao, qəhvə və çaya həsr edilmiş sosial tədqiqatlarının nəticələrini Xəzər Universitetinin "Khazar Journal of Humanities and Social Sciences" ("Xəzər Humanitar və Sosial Elmlər Jurnalı") jurnalının xüsusi nömrəsində çap etdirə bilərlər. Jurnalın linki: *https://jhss-khazar.org/*

At the closing ceremony of the Confgress, Final Declaration has been presented, and announced a call for publications of original and unpublished work in a Special Issue of Beverage Plant Research, international, open access, online-only journal:

*https://www.maxapress.com/bpr*

Additionally, the Khazar Journal of Humanities and Social Sciences invites congress speakers in the social sciences of tea, coffee, and cocoa to publish their original work in a Special Issue of the journal:

*https://jhss-khazar.org/*



## *UNİLab* LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ VEBİNAR

## WEBINAR WITHIN *UNILab* PROJECT

Aprelin 30-da *UniLab* layihəsi çərçivəsində onlayn vebinar təşkil olunmuşdur. Vebinarda Enterprise Hub platformasının istifadəçiləri, Xəzər Universitetinin tələbə və müəllimləri iştirak etmişlər. Vebinarda əsas məruzəçi Çexiya Texniki Universitetinin karyera məsləhətçisi Helena Pechová, moderator isə Xəzər Universiteti İnkişaf ofisinin layihə meneceri Məhin Cəbrayılova olmuşdur.

Helena Pechová vebinarı daha çox sual-cavab əsasında aparmışdır. İştirakçılar sonda CV hazırlamaq, social media platoformalarını idarə etmək və şəbəkə formalaşdırmaq ilə bağlı əsas biliklərə yiyələnmişlər.

On April 30, an online webinar was organized as part of the *UniLab* project. The webinar was attended by Enterprise Hub users, Khazar University students and faculty members. The keynote speaker at the webinar was Helena Pechová, the career consultant at the Czech Technical University, and the moderator was Mahin Jabrailova, the project manager at the Khazar University Development Office.

Helena Pechová conducted the webinar based on more questions and answers. At the end, participants learned the basics of preparing a CV, managing social media platforms and networking.



## TƏHSİL DEPARTAMENTİNİN NÖVBƏTİ QONAQ MÜHAZİRƏÇİSİ: MAGNUS FRAMPTON

Mayın 10-da Almaniyanın Vechta universitetinin müəllimi Magnus Frampton Xəzər Universitetinin tələbələri üçün mühazirə oxuyub. Təhsil departamentinin qonaq mühazirəçisi kimi çıxış edən Magnus Frampton`un "Sülh Təhsili və Sosial İş" (Peace Education and Socila Work) adlı mühazirəsi departamentin ikinci kurs tələbələri üçün təşkil olunmuşdu. Hibrid formada davam edən mühazirə Avropada sosial iş, sülh təhsili və bu sahələrin ortaq cəhətləri kimi məsələləri əhatə edib. Xüsusilə bu sahələrin Almaniyada necə təşkil olunduğundan bəhs edən Magnus Frampton mühazirənin sonunda tələbələrin suallarını cavablandırıb.

Qeyd edək ki, hazırda Almaniyanın Vechta Universitetində müəllim kimi fəaliyyət göstərən Magnus Frampton sosial iş sahəsində iyirmi ildən çox təcrübəyə malikdir və Almaniya da daxil olmaqla Britaniya, Norveç və digər ölkələrdə də fəaliyyət göstərib. Frampton hazırda Vechta Universitetində Təhsil sosiologiyası, Beynəlxalq sosial iş və Almaniyada sosial iş dərslərini tədris edir.

## NEXT GUEST LECTURER AT DEPARTMENT OF EDUCATION: MAGNUS FRAMPTON

On May 10, Magnus Frampton, the lecturer at the University of Vechta in Germany, gave a lecture for Khazar University students. The lecture by Magnus Frampton, the guest lecturer of the Department of Education, entitled "Peace Education and Social Work" was organised for second year students of the department. The hybrid lecture covered issues such as social work, peace education and commonalities of these fields in Europe. In particular, Magnus Frampton spoke about how these areas are organized in Germany and answered students' questions at the end of the lecture.

Magnus Frampton, currently the lecturer at the University of Vechta in Germany, has more than twenty years of experience in social work and has worked in Germany, Britain, Norway and other countries. Frampton currently teaches Sociology of Education, International Social Work and Social Work in Germany at the University of Vechta.



## ATATÜRK UNİVERSİTETİ İLƏ "XƏZƏR" ARASINDA MÜQAVİLƏ İMZALANDI

Mayın 19-da Direktorlar və Qəyyumlar Şurasının görüş otağında Türkiyənin Atatürk Universiteti ilə Xəzər Universiteti arasında ikitərəfli əlaqələrin möhkəmlənməsinə dair müqavilə imzalanmışdır. Tədbirdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı, rektor dosent İradə Xəlilova, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli və Beynəlxalq əlaqələr şöbəsinin koordinatorları Arzu Bədəlova və Fatimə Vəliyeva, Atatürk Universitetinin Səhiyyə Elmləri İnstitutunun direktoru Prof. Dr. Elif Çadırcı, Direktor müavini Prof. Dr. Abdülmecit Albayrak, Klinik tədqiqat, inkişaf, dizayn təcrübəsi və tədqiqat mərkəzinin direktoru Prof. Dr. Zekai Halıcı və Əczaçılıq fakültəsinin müəllimi Prof. Dr. Yasin Bayır iştirak etmişlər.

Qeyd edək ki, əməkdaşlığa dair sənəddə universitetlərarası əlaqələrin genişləndirilməsi, birgə elmi tədbirlərin keçirilməsi, birgə elmi nəşrlərin təsis edilməsi, işçi heyəti və tələbələrin mübadiləsi və bir sıra vacib məsələlər nəzərdə tutulmuşdur.

İmzalanma mərasiminin sonunda hər iki tərəf bir-birinə hədiyyə təqdim etdi.

## AGREEMENT SIGNED BETWEEN ATATURK UNIVERSITY AND KHAZAR UNIVERSITY

On May 19, an agreement on strengthening bilateral relations was signed between Ataturk University and Khazar University in Turkey in the meeting room of the Board of Directors and Trustees. The event was attended by Khazar University Founder, Chairman of the Board of Directors and Trustees, Professor, Academician Hamlet Isakhanli, Rector Associate Professor Irada Khalilova, Director of Public Relations and Media Alovsat Amirbeyli, and International Relations Coordinators Arzu Badalova and Fatima Valiyeva, Director of Ataturk University's Institute of Health Sciences. Prof. Dr. Elif Çadırcı, Deputy Director Prof. Dr. Abdulmecit Albayrak, Director of the Center for Clinical Research, Development, Design Practice and Research. Prof. Dr. Zekai Halıcı and Member of the Faculty of Pharmacy Prof. Dr. Yasin Bayir.

It should be noted that the document on cooperation envisages the expansion of inter-university relations, joint scientific events, the establishment of joint scientific publications, staff and student exchanges and a number of important issues. At the end of the signing ceremony, both parties presented gifts to each other.




## XƏZƏR UNİVERSİTETİNİ TƏMSİL EDƏN "GLORY" 1-Cİ YERİ TUTDU

Mayın 8-də DTX Mədəniyyət Mərkəzində Dövlət Gömrük Komitəsi Akademiyası Tələbə Gənclər Təşkilatı (TGT) nəzdində fəaliyyət göstərən "Dil-İnkişaf" klubu, Azərbaycan Dillər Universiteti Tələbə Gənclər Təşkilatı nəzdində fəaliyyət göstərən "Conversation Club" Se-Nur Psixologiya və İnkişaf mərkəzinin əməkdaşlığı ilə ingilis dilində "BrainBert" adlı intellektual yarış keçirmişlər.

Yarışda ölkə universitetlərindən 16 komanda iştirak etmişdir. Xəzər Universitetini təmsil edən "Glory" komandası yarışda 1-ci yeri tutmuşdur. Komandanın üzvləri: Fariz Pirmətov, Tamerlan Abdullayev (Təbiət elmləri və mühəndislik fakültəsi, 4-cü kurs, kompüter mühəndisliyi), İsmayıl Adıgözəlov (Humanitar, təhsil və sosial elmlər fakültəsi, 2-ci kurs, regionşünaslıq), Tuqay Abdullazadə (Təbiət elmləri və mühəndislik fakültəsi, 4-cü kurs, kompüter elmləri) və Bəhruz Şabılı (Təbiət elmləri və mühəndislik fakültəsi, 2-ci kurs magistratura tələbəsi, kompüter elmləri).

Qaliblərə yarışmanın kuboku təqdim olunub.

## "GLORY", REPRESENTING KHAZAR UNIVERSITY, TOOK FIRST PLACE

On May 8, an intellectual competition called "BrainBert" in English was held at the SSS Cultural Center in cooperation with "Language-Development" club operating under the Student Youth Organization (SYO) of the Academy of the State Customs Committee, "Conversation Club" operating under the Student Youth Organization of Azerbaijan University of Languages and Se-Nur Center for Psychology and Development.

The "Glory" team, representing Khazar University, took first place in the competition among 16 teams from the country's universities. Team members: Fariz Pirmatov, Tamerlan Abdullayev (School of Science and Engineering, 4th year, Computer engineering), Ismail Adigozalov (School of Humanities, Education and Social Sciences, 2nd year, Regional studies), Tugay Abdullazade (School of Science and Engineering, 4th year, Computer science) and Bahruz Shabili (School of Science and Engineering, 2nd year master's student, Computer science).

The winners were awarded with the cup of the competition.

## "XƏZƏR"İN KOMANDASI İNTELLEKTUAL TURNİRİN QALİBİ OLDU
## KHAZAR UNIVERSITY TEAM WON THE INTELLECTUAL TOURNAMENT

Mayın 9-da Bakıdakı Landmark otelində Azərbaycan Gənclər Fondunun dəstəyi, "İrəli" İctimai Birliyinin təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü ilə əlaqədar tədbirlər planı çərçivəsində "Nə? Harada? Nə zaman?" intellektual turniri keçirilib.

200-ə yaxın gəncin iştirak etdiyi turnirdə 40 komanda birincilik uğrunda mübarizə aparıb. Xəzər Universitetinin "BoomShakaLaka" komandası böyük fərqlə 1-ci yeri tutaraq, yarışmanın qalibi olmuşdur.

Qalib komandanın üzvləri:Tamerlan Abdullayev İsmayıl Adıgözəlov, Tuqay Abdullazadə və Behruz Şabılı .

Qaliblərə sertifikat təqdim olunub.

On May 9, "What? Where? When?" intellectual tournament was held at Landmark Hotel in Baku with the support of the Azerbaijan Youth Foundation, organized by Ireli Public Union, within the framework of the action plan dedicated to the 99th anniversary of national leader Heydar Aliyev .

In the tournament, which was attended by about 200 young people, 40 teams competed for the championship. Khazar University's "BoomShakaLaka" team won the competition, taking first place by a wide margin.

Members of the winning team: Tamerlan Abdullayev, Ismail Adigozalov, Tugay Abdullazade and Bahruz Shabili .

The winners were awarded certificates.

## "ALUMNİ TALK": NÖVBƏTİ SEMİNAR
## "ALUMNI TALK": THE NEXT SEMINAR





Mayın 10-da Xəzər Universiteti İnkişaf Mərkəzinin təşkilatçılığı ilə "Alumni Talk" adlı silsilə seminarlardan növbətisi keçirildi. Seminarın qonaq natiqi "Xəzər"də hüquq sahəsi üzrə təhsil almış, hazırda Dövlət Məşğulluq Agentliyi İdarə Heyətinin sədri olan Mustafa Abbasbəyli idi.

Universitetin əməkdaş və tələbələrinin iştirakı ilə keçirilən seminarı İnkişaf Mərkəzinin rəhbəri Raziyə İsayeva açaraq, Mustafa Abbasbəylini təqdim etdi. Mustafa Abbasbəyli çıxışında öz həyat yolundan, Xəzər Universitetində təhsili zamanı qazandığı bilik və təcrübədən, başına gələn maraqlı hadisələrdən, iş həyatında olan uğurlarından və səbəblərindən danışdı.

Sonra Mustafa Abbasbəyli sualları cavablandırdı və tələbələrə öz tövsiyələrini verdi.

Tədbir Xəzər Universitetinin rektoru İradə Xəlilovanın Mustafa Abbasbəyliyə və iştirakçılara təşəkkürü ilə yekunlaşdı.

On May 10, Khazar University Development Center hosted another series of seminars "Alumni Talk." The guest speaker of the seminar was Mustafa Abbasbayli, who studied law at Khazar and is currently the Chairman of the Board of the State Employment Agency.

Raziya Isayeva, Head of the Development Center, opened the seminar with the participation of university staff and students and introduced Mustafa Abbasbayli. In his speech, Mustafa Abbasbeyli spoke about his life, the knowledge and experience he gained while studying at Khazar University, the interesting events that happened to him, his successes in business and its reasons.

Then Mustafa Abbasbayli answered the questions and gave his recommendations to the students.

The event ended with Khazar University Rector Irada Khalilova thanking Mustafa Abbasbayli and the participants.




# BANK ƏMƏKDAŞLARI XƏZƏR UNİVERSİTETİNDƏ

# BANK EMPLOYEES AT KHAZAR UNIVERSITY

Mayın 10-11-də Azərbaycan Respublikası Mərkəzi Bankının İstehlakçılarla iş departamenti Maliyyə savadlılığı şöbəsinin əməkdaşları Vüsal Həsənov və Aytən Hacıyeva Xəzər Universitetinin Neftçilər kampusunda müəllim və tələbələrlə görüşdülər. İctimai Əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli onları salondakılara təqdim etdi. V.Həsənov Mərkəzi Bank və maliyyə savadlılığı ilə bağlı respublikanın digər universitetlərində aparılan maarifləndirmə işlərindən danışdı və Xəzər Universitetində yaradılmış şəraitə görə rəhbərliyə təşəkkürünü bildirdi.

Azərbaycan Bank Tədris Mərkəzinin ekspertləri Rauf Ağayev maliyyə savadlılığı, Pərviz Quliyev Azərbaycanda sığorta sistemi və onun tətbiqi haqqında geniş mlumat verdilər və çoxsaylı sualları cavablandırdılar.

Sonda Ə.Əmirbəyli universitet rəhbərliyi adından Mərkəzi bankın əməkdaşlarına və Azərbaycan Bank Tədris Mərkəzinin ekspertlərinə təşəkkür bildirdi. Tədbirdən televiziya çəkilişi aparıldı.

Mayın 12-də Mərkəzi Bankın əməkdaşları və ekspertləri universitetin Mərkəz kampusunda da (Bəşir Səfəroğlu küçəsi) eyni məzmunda görüş keçirdilər.

On May 10-11, Vusal Hasanov and Ayten Hajiyeva, employees of the Financial Literacy Department of the Consumer Affairs Department of the Central Bank of the Republic of Azerbaijan, met with faculty members and students at Khazar University's Neftchiler campus. Director of Public Relations and Media Alovsat Amirbayli introduced them to the participants. V.Hasanov spoke about the awareness-raising work carried out at the Central Bank and other universities in the country on financial literacy, and thanked the management for the conditions created at Khazar University.

Experts of the Azerbaijan Bank Training Center Rauf Agayev gave detailed information about financial literacy and Parviz Guliyev spoke about the insurance system in Azerbaijan and its application and both answered numerous questions.

At the end, A.Amirbeyli thanked the employees of the Central Bank and the experts of the Azerbaijan Bank Training Center on behalf of the university administration. The event was televised.

On May 12, employees and experts of the Central Bank held a similar meeting on the Central Campus of the University (Bashir Safaroglu Street).

# KİM "KİTABXANA FƏALİYYƏTİNDƏ YENİ TEXNOLOJİ HƏLLƏR" ADLI DƏYİRMİ MASADA

# LIC AT THE ROUND TABLE "NEW TECHNOLOGICAL SOLUTIONS FOR LIBRARY ACTIVITIES"

Mayın 12-də Xəzər Universiteti Kitabxana İnformasiya Mərkəzinin (KİM) direktoru Tatyana Zaytseva və direktor müavini Aytac Misgərli Bakı Dövlət Universitetində Azərbaycan Kitabxana İnformasiya Konsorsiumu (AzKİK) çərçivəsində keçirilən "Kitabxana fəaliyyətində yeni texnoloji həllər" adlı dəyirmi masada iştirak ediblər.

Dəyirmi masada beynəlxalq təşkilatlar və nəşriyyatlarla əməkdaşlıq, EİF.net beynəlxalq konsorsiumuna üzvlük, ANKOSLink–Anadolu Universitet Kitabxanaları ilə əməkdaşlıq, açıq elektron informasiya resurslarının imkanları (Open Access), açıq resurslara əlyetərliyin təmini mövzuları müzakirə olunmuşdur.

On May 12, Tatiana Zaytseva, Director of Khazar University Library Information Center (LICC), and Aytaj Misgarli, Deputy Director, participated in a roundtable on "New Technological Solutions for Library Activities" held at Baku State University as part of the Azerbaijan Library Information Consortium (AzRIC).

The round table discussed cooperation with international organizations and publishers, membership in the international consortium EIF. net, cooperation with ANKOSLink-Anatolian University Libraries, Open Access, and access to open resources.



# TƏLƏBƏLƏR ÜÇÜN "DUALİZM VƏ ONUN PROBLEMLƏRİ" MÖVZUSUNDA MƏRUZƏ

# LECTURE FOR STUDENTS ON "DUALISM AND ITS PROBLEMS"





Mayın 12-də Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin təşkilatçılığı ilə Xəzər Universitetinin müəllimi, fəlsəfə doktoru Anar Cəfərov "Dualizm və onun problemləri" mövzusunda məruzə ilə çıxış edib.

Açılış Anar Cəfərovun təqdimatı ilə başlanıb və daha sonra tələbələr, həmçinin qonaqlar tərəfindən diskurslar ilə davam etdirilib. Məruzə zamanı tələbələrə Platon və Dekartın ruh-bədən dualizmi, eyni zamanda doğurduğu problemlərlə bağlı məlumatlar da verilib.

On May 12, with the organization of Khazar University's Department of Political Science and Philosophy, the lecturer at Khazar University and Doctor of Philosophy Anar Jafarov delivered a speech on "Dualism and Its Problems."

The opening began with a presentation by Anar Jafarov and was followed by discourses by students and guests.

"The speaker addressed the mind-body dualism in the philosophies of Descartes and Plato"





# DEPARTAMENT MÜDİRİ BEYNƏLXALQ KONFRANSDA

# DEPARTMENT HEAD AT INTERNATIONAL CONFERENCE

Mayın 13-də Bakıda Azərbaycan Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi ilə Türkiyənin Xarici İşlər Nazirliyi Strateji Araşdırmalar Mərkəzinin birgə təşkilatçılğı ilə "Şuşa Bəyannaməsi və Azərbaycan-Türkiyə Diplomatik Münasibətlərinin 30-cu İldönümü" adlı konfrans keçirilmişdir.

Türk dövlətlərindən səfir və diplomatların, elm adamları və media nümayəndələrinin qatıldığı konfransda Tarix və arxeologiya departamentinin müdiri dosent Telman Nüsrətoğlu məruzə etmiş, Azərbaycan - Türkiyə qardaşlığının tarixi kökləri, iki ölkə arasındakı müştərək güc inşası və strateji bütünləşməyə doğru yüksələn prosesi konfrans iştirakçıları üçün dəyərləndirmişdir.

A conference entitled "Shusha Declaration and the 30th Anniversary of Azerbaijan-Turkey Diplomatic Relations" was held in Baku on May 13, jointly organized by the Center for Analysis of International Relations, Azerbaijan and the Turkish Foreign Ministry's Center for Strategic Research.

Associate Professor Telman Nusratoglu, Head of the Department of History and Archeology, made a speech at the conference, which was attended by ambassadors and diplomats, scientists and media representatives from Turkish countries and evaluated the historical roots of the Azerbaijani-Turkish brotherhood, the process of building a joint power between the two countries and the process of strategic integration.

# QOBUSTAN DÖVLƏT TARİXİ-BƏDİİ QORUĞUNA EKSKURSİYA

# EXCURSION TO GOBUSTAN STATE HISTORICAL-ARTISTIC RESERVE



Mayın 16-da Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin tələbələri Tarix və arxeologiya departamentinin müəllimi Kəmalə Mustafayevanın rəhbərliyi ilə Qobustan dövlət tarixi-bədii qoruğuna ekskursiya səfəri ediblər. Tələbələrə Muzeyin bələdçisi Arifə Qurbanova Azərbaycanın tarixi incilərindən biri olan Qobustan abidəsi haqqında ətraflı məlumat verilib. Abidə ilə əyani tanışlıq tələbələr tərəfindən böyük maraqla qarşılanıb.

On May 16, students at Khazar University's School of Economics and Management, led by Kamala Mustafayeva, the lecturer in the Department of History and Archeology, toured the Gobustan State Historical and Artistic Reserve. The students were given detailed information about the Gobustan monument, one of the historical pearls of Azerbaijan, by the museum's guide Arifa Gurbanova. Visual acquaintance with the monument was met with great interest by the students.

## “XƏZƏR XƏBƏR”İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU



# QULAM MƏMMƏDLİNİN 125 İLLİYİNƏ HƏSR OLUNMUŞ ELMİ SESSİYA

Ədəbiyyat İnstitutunda görkəmli salnaməçi alim Qulam Məmmədlinin 125 illiyinə həsr olunmuş elmi sessiya keçirilib. Elmi sessiyanı giriş sözü ilə AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli açaraq, qeyd edib ki, Qulam Məmmədli Azərbaycanda ədəbi salnamə janrının banisidir. O ilk dəfə “Molla Nəsrəddin” salnaməçisi kimi tanınıb. Sonralar Hüseyn Cavid, Nəriman Nərimanov və başqaları haqqında sanballı salnamələr hazırlayıb. Bu böyük alim “Azərbaycanın Əməkdar mədəniyyət işçisi” fəxri adı, Azərbaycan Jurnalistlər İttifaqının “Qızıl qələm” mükafatı laureatı, “Əmək veteranı” medalı ilə təltif olunub.

Sonra Ədəbi tənqid şöbəsinin müdiri, filologiya elmləri doktoru Vaqif Yusifli, tarix elmləri doktoru Solmaz Tohidi, BDU-nun professoru, tarix elmləri doktoru Nəsiman Yaqublu, “Ədəbiyyat qəzeti”nin məsul katibi, Əməkdar mədəniyyət işçisi, teatrşünas Atababa İsmayıloğlu, Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Gülbəniz Babayeva, Mətbuat tarixi və publisistika şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Vüqar Əhməd görkəmli salnaməçi alimin yaradıcılıq fəaliyyəti haqqında müxtəlif mövzularda məruzələrlə çıxış etmişlər.

Qeyd olunub ki, Qulam Məmmədlinin şəxsi arxivi ilə bağlı iki kitab işıq üzü görmüşdür. Afaq Əliyeva və Pərvanə Teyyubovanın Qulam Məmmədli arxivinin təsviri kitabı çap olunmuşdur.

Bu materiallar içərisində ilk baxımdan diqqəti cəlb edən iki tərcümeyi-hal vardır. Onlardan biri 1972-ci ildə rus dilində 3 səhifəlik qara makina çapı, “Qısa tərcümeyi-halım” digəri isə 1979-cu ildə Azərbaycan dilində kiril əlifbası ilə yazılmış avtoqrafıdır. Bu tərcümeyi-hallar Q.Məmmədlinin 1980-ci ilə kimi həyat və fəaliyyətinin özü tərəfindən işıqlandırılması baxımından dəyərlidir.

Bu gün AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun xəzinəsində Q.Məmmədliyə məxsus müxtəlif əlyazmalar vardır ki, bunlardan şəxsi fondunda mətbu və qeyri-mətbu materialları, ən başlıcası isə, əlyazma şəklində olan “Təzkirə”si mövcuddur. Aybəniz Rəhimova bu “Təzkirə”ni çap etdirmişdir”.

Tədbirdə “Salnaməçi” (Qulam Məmmədli) sənədli televiziya filminin nümayişi də olub.



## ƏMƏKDAŞLARIN ŞUŞAYA SƏFƏRİ

Ədəbiyyat İnstitutunun əlliyə yaxın əməkdaşı Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinə səfər edib.

İnstitutun baş direktoru akademik İsa Həbibbəylinin təşəbbüsü ilə həyata keçirilən bu səfərin əsas məqsədi 44 günlük Vətən Savaşında Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə Müzəffər Azərbaycan ordusunun qazandığı şanlı zəfər nəticəsində işğaldan azad olunan doğma Şuşa şəhərini görmək arzusunu İnstitut əməkdaşları üçün gerçəkləşdirməkdir. Təsadüfi deyil ki, Şuşa Azərbaycan ədəbiyyatının yarandığı ən mühüm mərkəzlərdən biridir. Burada görkəmli şair və yazıçılarımızdan Molla Pənah Vaqif, Xurşidbanu Natəvan, Mir Möhsün Nəvvab, Nəcəf bəy Vəzirov, Süleyman Sani Axundov, Üzeyir bəy Hacıbəyli, Əhməd bəy Ağaoğlu, Ceyhun bəy Hacıbəyli, Yusif Vəzir Çəmənzəminli və adlarını sadalamaqla bitməyən neçə-neçə dahilərimiz yaşayıb yaratmışlar. Hər bir Azərbaycan vətəndaşının, o cümlədən ədəbiyyatşünasların otuz il arzusunda olduğu Şuşanı gedib görmək istəyini nəzərə alaraq, Ədəbiyyat İnstitutu qurumun Həmkarlar Təşkilatının dəstəyi ilə mədəniyyət paytaxtına səfər təşkil etmişdir.

Şuşa ziyarəti dövlətimizin Şuşaya vətəndaş səfərləri çərçivəsində yaratdığı imkanlardan faydalanmaqla həyata keçirilmişdir. Səfər çərçivəsində İnstitut əməkdaşları proqram üzrə Xurşidbanu Natəvanın evi və bulağı, Şuşa qalası, Mərkəzi Meydandakı Üzeyir Hacıbəyli, Xurşidbanu Natəvan və Bülbülün heykəlləri, Bülbülün ev muzeyi, Cıdır düzü və Molla Pənah Vaqifin muzey-məqbərə kompleksini ziyarət ediblər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev görkəmli şairimiz Xurşidbanu Natəvanın anadan olmasının 190 illik yubileyinin qeyd olunması məqsədilə 14 mart 2022-ci il tarixli Sərəncam imzalayıb. Ölkə başçısının Sərəncamına uyğun olaraq, səfər çərçivəsində Şuşanın mərkəzində yerləşən Xurşidbanu Natəvanın heykəli önündə görkəmli şairə həsr olunmuş "Xan qızı Xurşidbanu Natəvan" adlı elmi sessiya keçirilib. Şuşa səfəri Ədəbiyyat İnstitutunun əməkdaşlarında zəngin təəssürat yaradıb. Bu təəssüratların gələcək elmi tədqiqatlar üçün stimul verəcəyi şübhəsizdir.

**Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,**
**İctimaiyyətlə əlaqələr şöbəsi**



# GƏNCƏ LÖVHƏLƏRİ VƏ ƏSGƏRLİK

**Hamlet İsaxanlı**

*Əvvəli jurnalın 416-cı (aprel 2022-ci il) nömrəsində*

***

Yağış üçün çox darıxırdım. Yenə də doğma kəndimiz kömək etdi. Evimizdə olanda yaxşı yağış yağdı. Qayıdanda yoldaşlar dedilər ki, Gəncədə də bir az yağıb. İndi çölə az gedirik, əsasən kazarma və onun ətrafında oluruq. Yavaş-yavaş günlər keçir. Qəribə işdir; bir tərəfdən adam günlərin tez gəlib keçməsini arzulayır, o biri tərəfdən isə fikirləşəndə aydın olur ki, keçən günlər ömür kitabımızın vərəqləridir, vərəqlədikcə, oxuduqca yerdə qalan hissə azalır...

Hərbi təlimdə bir yerdə olduğum tələbə yoldaşlarımı bir-bir xarakterizə etmək istəmirəm, ancaq daha qabarıq özünü göstərmiş qrup və ya kateqoriya barədə danışmaq olar. "1-ci kateqoriya"nı təşkil edənlər, mənim ruhuma uyğun gələn "öz uşaqlarımız": Elmxan, Abbas Əzimov, Abbas Hüseynov, İsmixan, Hüseyn. Əlbəttə, bunların sırasına İzharı da daxil etmək olar. Bu yoldaşlarla dünyanın o başına da getmək olar. Elmxan Stalinə oxşar şəxsdir, bir qədər kobudluğu var, amma qızıldır. Abbas Əzimov hərdənbir özünü çəkməsə, bizdən aralanmasa, o da qızıldır. Məmmədağa çox və bir qədər rabitəsiz danışandır və tənbəldir, hələlik dostluğu yaxşı başa düşmür, amma təmizdir, gələcəyi yaxşı ola bilər. Əlbəttə, bəzi xüsusiyyətləri çıxmaqla 1-ci kateqoriyanın sıralarını artırmaq olar. Xoşuma gəlməyən, 2-ci kateqoriyaya daxil etdiklərim: M, S, İ, R, M, F...Bunların içində bir az "şükürlər"i M və F-dır, digərlərini, təəssüf ki, acgöz, özünü gözə soxan, tülkü və yalançı, xəsis və paxıl kimi sözlərlə "tərif etmək" olar, hərəsində bu keyfiyyətlərin ikisi-üçü yuva salıb. Qalan uşaqları xarakterizə etmirəm.


Мәним руһума уйғун ҝәлән „өз ушагларымыз": 1° Елмхан, 2° Аббас Ә., 3° Аббас Һ., 4° Исмихан, 5° Һүсејн. Әлбәттә бунларын сырасына 6° Изһары да дахил етмәк олар. Бу јолдашларла дүнјанын о башына да ҝетмәк олар.


Галан ушаглары характеризә етмирәм.

6 avqust. Axşam Elmxan, Nazim və mən hasardan aşıb şəhərə qaçdıq. Mən öz (vətəndaş) paltarımda idim, Nazim və Elmxan idmançı paltarı geymişdilər. Elmxan 9 nömrəli futbolçu köynəyi geymişdi, gülməli görünürdü. Restorana getdik, sonra gəzə-gəzə geri qayıtdıq.

Əsgərlikdə çox işlətdiyimiz, çeynənmiş, bayağı ifadələrimiz vardı, bu ifadələrlə bir-birimizə müraciət edir və ya kiminsə ağzını əyib, yamsılayıb gülürdük.

Məsələn:

-motal

-6 nömrəli qədeş

-Yaşamaq yaşamaqdır, bəs kaşa nədir? Kaşa yaşamaqçün bir bəhanədir

-Подтянуться! (Bir yerə toplan!)

-Вольно, заправиться! (Farağat, özünüzü/geyiminizi düzəldin!)

-Раздатчикам пищи, встать! (yemək paylayanlar, ayağa qalxın!)

-С ходу разобраться по три! (Yeriyə-yeriyə üç-bir olun!)

-Равняйсь была команда. Команда была равняйсь! (Düzlən əmri verilmişdi. Əmr verilmişdi: düzlən!) Ə, siznən deyiləmmi?

-Hey, куда пошел (hara getdin)? ho!

Və s.

**Qeyd.** Bu tam siyahı deyil, mənasını indi xatırlamadığım, anlaşılmaz digər ifadələr var.

Bizim uşaqlar hərdən mətbəxdə işləyirlər. Ora, adətən, hərbi nizamı pozanlar düşürlər. Bu uşaqlar arasında bizim Elmxan fəxri yer tutur, o, artıq üç dəfə mətbəxdə olub. Hamı onu "mətbəxin fəxri üzvü", "mətbəx üzrə əməkdar işçi" kimi adlarla çağırır. Mən bir dəfə də olsun mətbəxdə olmamışam.

***

Bu günlərdə (6-8 avqust) M. Tven`in (Mark Twain) "Принц и нищий" "(Şahzadə və dilənçi)" əsərini oxudum. Uşaqlar üçün yazılmış nağıl-povest demək olan bu kitaba. Amma, bədii dəyəri yüksəkdir, üstəlik, rusca oxuduğumuz belə kitablar rus dilini öyrənməyə kömək edir.

**Qeyd.** Son iki abzas (sətirbaşı) orijinalda rusca yazılıb.

Əvvəllər tez-tez futbol oynayırdım. Sonra güləşməyə başladım. Axı mən universitetdə yaxşı güləşirdim, sərbəst güləş və sambo ilə məşğul olmuşdum. Dalbadal Məmmədəlinin, Mardaxayın, Ələsgərin, İzharın kürəklərini yerə vurdum. Ələsgər və İzharın işi pis oldu, hər ikisini yerə atanda sağ gözlərinin altı yaralandı. Bundan sonra rəqiblərim azaldı.


Далбадал Мәммәдәлинин, Мардахајын, Әләсҝәрин, Изһарын күрәкләрини јерә вурдум. Әләсҝәр вә Изһарын иши дака пис олду, һәр икисини атанда сағ ҝөзләринин алты јараланды. Бундан сонра рәгибләрим азалды.

Nədənsə huşsuz kimi olmuşam, sevdiyim və müəyyən dərəcədə bacardığım şahmatda qeyri-müntəzəm nəticə alıram, gah lap yaxşı, gah da lap pis. Səbəbi oyun zamanı fikrimi bir yerə cəmləşdirməkdə çətinlik çəkməyimdir. Əlbəttə, yenə Nailə...

Qəribədir, musiqini həddindən artıq sevirəm, ancaq heç bir musiqi alətində çala bilmirəm. Mütləq məşğul olmaq lazımdır, bu yolda hər çətinliyə dözməyə hazıram. Pianinonu öyrənməkdə Nailə mənə çox kömək edə bilər. Ancaq xahiş etməyəcəm, özü başa düşsün, axı o bilir ki, mən musiqinin vurğunuyam.


Анҹаг хаһиш етмәјәҹәм. Өзү баша дүшсүн. Ахы о билир ки, мән мусигинин вурғунујам.

Bu günlərdə Rudəkinin şeirlərini oxudum – rus dilinə tərcümədə. Onlardan biri:

*Я потерял покой и сон - душа разлукою больна,*
*Так не страдал еще никто во все века и времена.*
*Но вот свиданья час пришел, и вмиг развеялась печаль:*
*Тому, кто встречи долго ждал, стократно сладостна она.*

**Qeyd.** Şeiri təqdim edən (şeirdən əvvəl) sətirdəki sözlər orijinalda ruscadır.

9 avqust. Saat 5-ə yaxın rəsmi icazə sənədi (увольнительный) alıb şəhəri gəzməyə çıxdıq. Nailə ilə telefonla danışmağı qərara aldım. Sifariş etdim və beş dəqiqədən sonra Nailənin doğma səsini eşitdim. "Alo, necəsən?" "Yaxşı! İki gündən bir getdiyim yerə getmişdim". Xeyli danışdıq, kefim kökəldi.

**Qeyd.** "İki gündən bir getdiyim yer" musiqi məktəbi deməkdir.


Сифариш етдим вә 5 дәгигәдән сонра N.-ин доғма сәсини ешитдим. „Алло, неҹәсән?“....

Sonra Abbas, Elmxan, Məmmədağa və mən xəngəlxanaya getdik, doyunca yeyib-içdik ("kafirlər" pivə içdilər, mən isə limonad). Oradan çıxıb Hüseynin əmisi oğlunun (onun da adı Hüseyndir) evinə getdik. Böyük bir qonaqlıq da orada oldu. Lenin adına mərkəzi parkda gəzdik. Yəqin ki, SSRİ-də belə gözəl park bir neçədən çox deyil. Parkı görən kimi Nailə yadıma düşdü, bir az onunla burada gəzsəydik...

***

Uşaqlıq aləmi! Gözəl, qayğısız, unudulmaz günlər! Uşaqlıq aləmini, uşaqları və uşaqların həyatı ilə bağlı olan hər şeyi sevirəm. Yəqin buna görə də məni tanıyan uşaqlar da məni sevirlər. Çox adam deyir ki, məndə hələ də uşaq xasiyyəti hökm sürür. Bilmirəm uşaq xasiyyəti dedikdə onlar nəyi nəzərdə tuturlar. Əgər həyatdakı söyüş, pislik, nifrət, eybəcərliklərlə təmasda olmamaq, onlardan uzaq durmaq uşaqlıq sayılırsa, onda mən doğrudan da uşağam. Əgər özünü təkəbbürlə tutan, insanlarla qaynayıb-qarışmayan adam kişi sayılırsa, insanlara qarşı səmimi olan, insanlarla özü arasında sərhəd qoymayan, zarafat edən, şən ruhla yaşayan adam uşaq sayılırsa, mən doğrudan da uşağam. Əgər romantika aləminə yad olmaq kişilik sayılırsa, mən doğrudan da uşağam. Qəti surətdə özümü tərifləmirəm, amma, bir sıra insanların nəzərində mən hələ yetişməmişəm, uşağam.




Mənim hal-hazırda 21 yaşım var, daha doğrusu, 21 yaş yarıma doğru gedirəm. Bu yaş həyatı dərk etmək, cəmiyyətdə öz yolunu seçmək üçün kifayət deyilmi? Hərtərəfli bilik verən orta məktəbi yaxşı oxuyub bitirmişəm, neçə ildir ki, ali məktəbdə oxuyuram, bir il sonra ali təhsilli adam olacam. Əlbəttə, həyat təcrübəm azdır... Hər halda, gələcək üçün planlarım var...

İki sevən gənc arasında yaş fərqi mühümdürmü? Yəqin ki, çox fərq özünü necəsə göstərə bilər. Nailə ilə mənim aramda yaş fərqi yoxdur, ay fərqi var, o, məndən 9 ay böyükdür və bu, əlbəttə, cüzi fərqdir. Hətta mənə elə gəlir ki, sevdiyim qız yaşca məndən kiçik olsa, ona uyğunlaşa bilmərəm. Nə bilim... İnsanların, xüsusilə oğlanla qızın qarşılıqlı məhəbbətində onların oxşar qəlbə, ruha malik olmaları, təqribən yaxın ictimai səviyyədə olmaları, zövqlərin az-çox uyğun gəlməsi, fiziki cəhətdən uyğunluğun olması əsas deyilmi?! Sağlam düşüncəli hər adam, yəqin ki, bu suala müsbət cavab verər. Məhv olsun aradakı uçurumlar, yaşasın məhəbbət!!!

Görəsən, Nailənin bu məsələlər haqqında fikri nədir? Bilmək maraqlı olardı...




***

11 avqust. Bazar günü axşamdan başlayaraq bizim vzvod qarovul təyin olundu. Özümü təqdim edə bilərəm: ikinci post (yer, sahə) üçüncü növbənin qarovulu kursant İsayev.

**Qeyd**. Bu son cümlə orijinal mətndə rusca yazılıb.

Bir postda növbə ilə üç nəfər dayanır, hərə iki saat. Mənim növbəm gecə saat 12-dən 2-yə kimi idi. Əlimdə iki dolu maqazinli, süngülü avtomat silah vardı, öz postum ətrafında gəzir, keşik çəkirdim.

**Qeyd**. Sonuncu cümlə "əlimdə avtomat" ifadəsi istisna olunmaqla orijinal mətndə ruscadır.

Gecə yaxınlıqdakı bir xışıltı məni qorxutdu, it imiş, az qaldı ki, onu güllə ilə vurum.

**Qeyd**. İndi düşünürəm ki, nə ağılsızlıq edib bizə içi güllə ilə dolu avtomat silah veriblərmiş?!

Səhər saat 5-də polk ştab rəisi mayor Antonov gəlib bizi yoxladı. 12 avqust axşam - əlvida qarovul!

**Qeyd.** Son iki cümlə orijinal mətndə rusca və azərbaycancanın qarışığıdır.

Elmxan futbol oynadıqda yıxılıb bərk əzilmişdi. Bu gün (13 avqust) o, özünü çox pis hiss edirdi. Yerindən zorla qalxıb-dururdu. Hərbi hissənin sanitar şöbəsinə getmək lazımdır - dedim. Elmxanın

tərsliyi tutmuş, getmək istəmirdi. Bir təhər yola gətirdim, bərabər sanitariya bölməsinə getdik və Elmxanı orada saxladılar (axşamüstü saat 5-də).


Елмхан футбол ојнадыгда јыхылыб бәрк әзилмишди. Бу күн (13-дә) О, өзүнү чох пис һисс едирди. Јериндән зорла галхыб-дурурду.

14 avqust. Səhər kapitan Xaçaturyan bizi çölə apardı və orada əvvəlcə PT - 42 markalı qumbara atmaqla məşğul olduq, sonra isə Makarov pistoletindən (tapançasından) atəş açdıq. Çöldən qayıdandan sonra Elmxanın yanına getdim, halının yaxşı olmadığını görüb, gecəyə kimi yanına gedib-gəldim.

15 avqust. Bu gün çox pis, gərgin gün oldu. Hamamdan qayıdandan sonra Abbas Əzimovla Elmxanı yoxlamağa getdik. Halı yaxşı deyildi. Oturub söhbət edirdik. Birdən Elmxan özündən getdi, rəngi qaçdı və gözləri batdı. Mən sarsıldım və çox qorxdum. Az qaldım ki, icazə almadan qaçıb kəndə gedəm, təhlükə xəbərini bildirəm. Ancaq yoldaşlar məni saxladılar. Həkimlər iynə-dərmana əl atıb, bizə hələlik gedin dedilər. Kazarmaya qayıtsam da, dura bilmədim, iki dəfə yoxlamağa getdim, yatırdı. Üçüncü dəfə getdikdə isə oyaq idi. Elmxanın sözündən belə çıxır ki, heç nə yadında deyil, halı pis olanda mənim onu qucağımda tutduğumdan, sonra onu çarpayıya uzatdığımdan xəbəri yoxdur. O, xeyli zəifləyib, xarab olub.


Бирдән Е. өзүндән кетди, рәнки гачды вә көзләри батды.

Bu sətirləri yazanda (Lenin otağında) Nazim (Sadıqov) mənə yaxınlaşdı və xatirələrimi yazdığımı bildikdə zarafatlam "məndən də yaz, məni də tarixə sal" dedi, mən də yazdım (tarixə düşüb-düşməyəcəyini bilmirəm).


Бу сәтирләри јазанда (Ленин отагында) Назим (Садыгов) мәнә јахынлашды

***

Axşam saat 9-a yaxın kazarmada oturub söhbət edirdik. Zarafatlaşmağa başladıq, mən İsmətə zarafatla nəsə dedim, o isə birdən məni söydü. Mən özümü itirdim, az qalmışdı ki, stulu onun başına vurum, ancaq uşaqlar mane oldular. Mən ürəyimdə özümə söz verdim ki, sabah çöldə onunla məsələni bitirim; bunu onun özünə də dedim. Ancaq, sabaha ehtiyac qalmadı. "Yatmağa gedin" ("otboy") əmrindən sonra mən boş stullardan birini götürüb qonşu otağa getdim, orada şahmat oynamağa başladıq. Bu anda podpolkovnik Çerepanov gəlib bizi qovdu ki, yatmaq vaxtıdır. Mən stulu da götürüb, geri qayıtdım. Kazarmaya girəndə yenə İsmətin səsini eşitdim, məni söyürdü. Hirs başıma vurdu, onun üstünə cumdum. Qaranlıqda hamı bir-birinə dəydi, hay-küy düşdü. Məlum oldu ki, mən götürdüyüm stul İsmətin imiş və o məni indi buna görə söyürmüş. Mən onu bayıra çıxarmağa çalışırdım, o isə ara vermədən söyürdü. Hirsimdən əllərim əsirdi. Nəhayət, onu bayıra çıxarmağa müvəffəq oldum. Təqribən saat 11-ə yaxın idi.

Biz güləşdiyimiz meydançaya gəldik. Mən öz-özümə söz vermişdim ki, onu nəfəsi kəsilincəyə qədər döyüm. O dərəcədə əsəbiləşmişdim ki, vuruşsaydıq, yəqin ki, İsmət bir neçə gün xəstə yatmalı olacaqdı. Ancaq, təəssüf ki, hər yandan tanıdığım və tanımadığım uşaqlar, yoldaşlar tökülüb bizi

**araladılar və İsməti aradan çıxardılar.**



Мән өзүмү итирдим, аз галмышдым ки, стулу онун башына вурум, анҹаг ушаглар мане олдулар.

Һирсимдән әлләрим әсирди.

вурсаjдым јәгин ки, Исмәт бир нечә күн хәстә јатмалы олаҹагды.

**Bundan sona saat 12-yə kimi həmin yerdə təkcə oturub fikirləşmişəm. Nə üçün mən belə etdim? Nə üçün məni davakar adam kimi tanısınlar, axı mən belə deyiləm. Lakin nə etməliydim? Axı o, məni nə qədər söydü, mən isə söyüşə söyüşlə cavab vermək istəmirəm, daha doğrusu, bunu heç bacarmıram. Yaxşı, özümə sual verirəm: mən niyə axmaq adamla zarafat edirəm? Nə isə...**

*******

**Bu günlərdə Azərbaycan qəzetlərindən hansında isə ailə həyatı haqqında müzakirələr gedirdi. Müzakirədə kimsə sevgi prosesini aşağıdan yuxarıya, gərək ki, belə üç hissəyə ayırmışdı: 1) Sevginin ilk pilləsi meyldir; bu, əsasən zahiri gözəlliyin təsiri nəticəsində yaranır. Meyl heç də həmişə böyüyüb məhəbbətə çevrilmir. Meyl, ümumiyyətlə, sevginin rüşeymidir, cücərə də bilər, cücərməyə də. 2) Sevgidə ikinci pillə məhəbbətdir. Məhəbbət meylin formalaşması, zahiri gözəllikdən əlavə mənəvi aləmdə yaxınlıq olmasıdır, uyğunluq yaranmasıdır, bir-birinə ehtiyac hiss etməkdir. Məhəbbət şüurlu, həqiqi surətdə bir-birinə bağlanmaqdır. 3) Sevginin ali, ən yüksək pilləsi eşqdir. Eşq məhəbbətin əqidəyə çevrilməsidir. Eşq sevənlərin fədakarlığının məhsuludur.**

**Yadımda qalanı öz sözlərimlə, mümkündür ki, fərqli şəkildə söylədim. Bir tərəfdən düşünürəm ki, tarix boyu şair və filosoflar sevgi və onun pillələri barədə yazmışlar və kiminsə bizim qəzetdə söylədikləri orijinal fikir deyil. Digər tərəfdən, mənə görə sevgi, məhəbbət və eşq kəlmələri, əsasən, eyni məna daşıyırlar, sinonimdirlər. Əlbəttə, istədikdə onları fərqləndirmək də mümkündür...**

**Öz-özümə düşünürəm: bu sevgi pillələrini qəbul etsək, mən və Nailə hansı pillədəyik? Səhv etmirəmsə, mən məhəbbətin eşqə çevrildiyi dövrü keçirirəm, bəlkə də artıq qəlbimə hakim kəsilən eşqdir. Nailə isə, yəqin ki, meylin məhəbbətə çevrilməsi dövrünü keçirir. Dövrlərimizin müxtəlifliyi yaxşıdırmı, məqbuldurmu? Yox! Sevgi - sevənlərin bərabər, bənzər duyğularla yaşaması deyilmi?!**



Бу күнләрдә Азәрбајҹан гәзетләриндән һансында исә аилә һәјаты һаггында мүзакирәләр кедирди.



Сәһв етмирәмсә мән мәһәббәтин ешгә чеврилдији дөврү кечирирәм, бәлкә дә артыг гәлбимә һаким кәсилән ешгдир.

**Qeyd. 2-ci dəftər burda bitir.**

**(3-cü dəftər)**




16 avqust. Bu gün bizi axırıncı dəfə şəhərə, gəzməyə buraxdılar, axı 24 və ya 25 avqust imtahan günümüzdür. İntahana qədər isə hazırlıq dövrüdür, avaralanmaq olmaz. Günorta şəhərə çıxdıq. Qərara aldıq ki, bu gün məşhur Göygölü görməyə gedək və gecəni də orada qalaq, çünki bütöv gün (sutka) üçün icazə almışıq (sənədimiz yerində idi). İki ay Gəncədə olmaq və Göygölü görməmək ayıb olardı.




Keçən həftə Nailə ilə telefon danışığında şərtləşmişdik ki, 16 avqust günü, yəni bu gün yenə axşam saat 6-da onu telefona çağırım. İndi təşvişə düşmüşdüm ki, danışıldığı kimi saat 4-də Göygölə doğru yola düşsək, onda mənim telefon zəngim necə olacaq. Uşaqları bir təhər razı saldım. Tez olmaq üçün avtomat-telefonla danışmağı qərara aldım. Zəng edən kimi Nailənin doğma səsini eşitdim, bir oğlanla danışırdı, onu nəsə təbrik edirdi. Danışmağa başladıq, həmişəki kimi gülüş dolu səsi məni əfsunladı, kefi kök idi. Nailənin danışığından məlum oldu ki, qubalı rəfiqəsi, orta məktəb yoldaşı Dilarə də ordadır və o, hansısa texnikuma daxil olub. Nailə telefonla danışıb, Dilarənin ailəsini təbrik edirmiş. Buna mən də sevindim, axı niyə belə ağıllı və savadlı qız oxumasın, başqaları (heç də hamısı ağıllı və savadlı olmayanlar) isə təhsil alsınlar.




Gəncədə avtobusa oturduq və Xanlara gedən yola çıxdıq, oradan isə başqa avtobusa oturub Ağsuya doğru yola düşdük. Bu avtobus bizi Göygölə kimi apardı.

Biz iki dəstə idik və hər dəstədə beş nəfər vardı. Biz: İsmixan, Hüseyn, Nazim, Məmmədağa və mən. O biri dəstə: Miri, Səlahəddin, İsmət, İzhar və Qabil. Gərək ki, saat yeddinin yarısında Göygöl ərazisinə çatdıq. Avtobusdan tökülüşdük, Göygöl hələ görünmürdü. Hiss olunurdu ki, bizdən 100-150 m uzaqda sahildən Göygöl müşahidə olunacaq. Mən oraya yaxınlaşanda özümü saxlaya

bilmədim, qaçmağa başladım və birdən qarşımda açılan heyrətləndirici gözəl mənzərədən sarsılıb dayandım, necə deyərlər, yerimdə donub qaldım. Hamı sükut içərisində idi. Şairlərin şeirlərində, aşıqların qoşmalarında, müğənnilərin oxuduğu mahnılarda vəsf edilən, rəssamların tablolarında canlanan məşhur Göygölü indi öz gözlərimizlə görürdük. Sükutu mən pozdum, istət-istəməz dodaqlarımdan S.Vurğunun tanış misraları çıxdı:

*Min Qazaxda köhlən ata*
*Yalmanına yata-yata*
*At qan-tərə bata-bata*
*Göy yaylaqlar belinə qalx*
*Kəpəz dağdan Göygölə bax!*

Bir dəqiqənin içərisində hamı bu misraları deməyə başladı.


Сукуту мән поздум, истәт-истәмәз додагларымдан С. Вургунун таныш мисралары чыхды:

***

Tarixçilərin dediyinə görə, Göygöl 1139-cu ildə baş vermiş zəlzələdə Kəpəz dağının uçması və Ağsu çayının qabağını kəsməsi nəticəsində əmələ gəlmişdir. Həddindən artıq şəffaf və təmiz suya malik olan bu göl ətraf dağların döşündə yerləşən yaşıl meşəni özündə əks etdirir və doğrudan da göy rəngə çalır. Məhz buna görə də, bu gölün adı Göygöl olmuşdur.


бу ҝөл әтраф дағларын дөшүндә јерләшән јашыл мешәни өзүндә экс етдирир вә доғрудан да ҝөј рәнҝә чалыр.

Göygöl şərqdən qərbə doğru uzanır. Gölün şimal hissəsində istirahət binaları, təzə tikilmiş mehmanxana, restoran və s. yerləşir. Gölün cənubunda isə qocaman və məğrur Kəpəz dağı ucalır.

Rəvayətə görə, Ağsu çayına məhəl qoymayan məğrur Kəpəz heç vaxt aşağı baxmazmış. Bir dəfə o, necə oldusa çaya nəzər saldı və Ağsu çayının gözəlliyi onu elə sarsıtdı ki, qarlı tacı başından düşdü və özü ilə apardığı qayalar çayın yolunu kəsdi. Bu, Ağsu çayını məğlub etdi və o, dayandı. Beləliklə də Göygöl əmələ gəldi.

Ümumiyyətlə, insan onu heyran edən, qəlbini oxşayan gözəlliklərə qarşı münasibətini müxtəlif tərzdə, müxtəlif vasitələrlə bildirir. Məsələn, musiqiyə qulaq asarkən mən tam sakitlikdə olmağı, gözlərimi yumaraq qulaq asmağı sevirəm və adətən, gözlərim önündən müxtəlif xatirələr keçir və mən həzinləşir, bir qədər kədərlənirəm. Çox sevdiyim təbii gözəllikləri, təbiətin ecazkar, qəşəng güşələrini seyr edərkən kefim kökəlir, ruhum oynayır, mahnı oxuyuram, ümumiyyətlə, günüm şən keçir. İndi də belə oldu. Hələ avtobusla Göygölə yaxınlaşarkən yol qırağındakı yamyaşıl meşələri, dumduru dağ çaylarını gördükcə oxumağa başladım. Bir az sonra uşaqlar da səsimə səs verdilər və gözəl bir ansambl yarandı. Əlbəttə, oxuduğumuz mahnılar arasında yaxşı bildiyimiz "Həyat, sən nə qəribəsən" birinci yeri tuturdu. Bu mahnını çox qəşəng oxuyurduq, peşəkar ifa təsiri bağışlayırdı və hamı heyrətlə bizə baxırdı.

Birdən İsmixan "nə tutubsunuz bu mahnının yaxasından, ondan da yaxşı mahnılar var" deyib, ortalığı qarışdırdı və təklif etdi ki, "Ayrılma məndən" mahnısını oxuyaq. Ancaq, çox təəssüf ki, heç kim bu mahnının sözlərini bilmirdi, bir neçə misra belə yada düşmədi. Hamı ümidsiz halda bir-

birinin üzünə baxdı. Belə olduqda mən dərin məna axtarmadan bir anda bu sözləri dedim, yəni uydurdum və hamı oxumağa başladı:

*Kəpəzin uca zirvəsi*
*Ləpələrin şirin səsi*
*İnsanların qəhqəhəsi*
*(Deyir)$_4$ : ayrılma məndən...*


Кәпәзин уча зирвәси
Ләпәләрин ширин сәси
Инсанларын гәһгәһәси
(Дејир)$_4$ ајрылма мәндән...

Bir az sonra qaranlıqlaşdı. Bizim dəstə sahildə, o biri dəstə isə yuxarıda tonqal qaladıq. Yemək-içmək başlandı. O biri dəstədən Miri və Səlahəddin yanımıza gəldilər, bizim dəstənin hay-küyü və şənliyi onları cəzb etmişdi. Hamılıqla ayaq üstə qalxıb tonqalın ətrafında fırlanmağa başladıq. Yarı paltarlı, yarı çılpaq idik. O dəqiqə "Robinzon Kruzo"dakı vəhşi sayılan qəbilə adamlarının adada tonqal ətrafındakı rəqsi yadıma düşdü. Biz də oxuya-oxuya tonqalın ətrafında rəqs edirdik.

Gecəyə doğru soyuq düşdü. Tonqal kənarında yatmaq çətin olduğuna görə yuxarıdakı mehmanxanaya yollandıq. Əvvəl "yox" dedilər, hay-küy saldıq və bizə bir otaq verdilər (on nəfər əsgərdən otaq imtina etmək, həm də gecə vaxtı, zarafat deyil ki).


Биз дә
оxуја-оxуја тонгалын әтрафында рәгс един-
дик.

***

17 avqust. Səhər saat 6-da hamı yuxudan qalxdı. Yenə Göygölün sahilinə gəldik. Səhər tezdən gölün xüsusi bir gözəlliyi vardı. Soyuq idi. Hamı üşüyə-üşüyə yuyunurdu, soyunmadan, paltarlı, Məmmədağa hətta papağını belə çıxarmamışdı. Ermənistanda, dağlarda səhərlər soyunaraq buz kimi soyuq çaya girib yuyunmağım yadıma düşdü. Bir an içində soyunub suya atıldım və çimməyə başladım. Əl çaldılar. Heç kim cürət edib suya girmədi.

Səhər yaxşı yeyəndən sonra Göygölün ətrafında gəzməyə başladıq. Məmmədağa o biri dəstəyə qarışdı, onlar getdilər. Necə mənzərəli yerlərdir! Qalın meşə, yamyaşıl otlar, uca dağlar,..., əhvalımız xoş. İsmixanla sözü bir yerə qoyduq ki, gələcəkdə mən Nailəni, o da öz sevgilisini götürüb Göygölə gələk. Doğrudan da?!


бир ан ичиндә
сојунуб суја атылдым вә чиммәјә баш-
ладым.

Xeyli gəzib, yenidən Göygölə qayıtdıq. Dönə-dönə Göygölə qayıtmaq çox xoşdur. Bazar günü olduğu üçün çox adam toplaşmışdı. Hər yandan gəlmiş turistlər yeyib-içir, çalıb-oxuyurdular. Hava və su qızdıqdan sonra göldə yenidən çimdik. Günortaya yaxın getməyə hazırlaşırdıq, ancaq... əsgər paltarında olmağımız bizə mane oldu (ümumiyyətlə, əsgər paltarı gah mane olur, gah da kömək

edir). Sahildə əyləşib kef çəkən üç nəfər bizi çağırdı. Məlum oldu ki, onlar sabirabadlıdırlar. "Biz də əsgərlikdə olmuşuq, hər şeyi yaxşı başa düşürük, gərək bizimlə yeyib-içəsiniz" deyə, bizi öz məclislərinə dəvət etdilər. Nə qədər xahiş etdiksə xeyri olmadı, bizi buraxmadılar, naəlac qalıb oturduq...


бизи бурахмадылар, наәлаҹ галыб отурдуг...

Saat 3-də piyada Ağsuya tərəf yola düşdük. Yolların ətrafını bürüyən qalın meşəlik, meşəlikdə əyləşib kef edən adamların qayğısız gülüşləri yolun uzaqlığını unutdururdu. Ağsuda avtobusa mindik və axşam saat 7-də kazarmada olduq. Böyük həzz aldığımız Göygöl səfərimiz sona yetdi.

***

Kazarma həyatı, ümumiyyətlə, çox ziddiyyətlidir, yaxşı, xoş cəhətləri də var, xoşagəlməz tərəfləri də. Buna görə uşaqlar buranı gah kurort, gah da həbsxana adlandırırlar. Robinzon Kruzo kimsəsiz adada xoşbəxt, ya bədbəxt olduğunu gündəliyində qeyd edib araşdırdığı kimi, mən də kazarmanın həbsxana ya kurort olması barədə qeydlərimi yazıram:

| Həbsxana | Kurort |
|---|---|
| 1. İstədiyim insanların çoxundan ayrı düşmüşəm. | 1. Öz kollektivimizdəyəm, burda dostlarım var. |
| 2. Kazarma həyatı bezdiricidir, bayıra gəzməyə buraxmırlar. | 2. Tez-tez qaçmaq imkanı var. Həm də hər 6-cı və bazar günləri axşama kimi şəhərə gəzməyə buraxırlar. |
| 3. Yemək, içmək dadsız, keyfiyyətsizdir. Çox zaman susuz qalırıq. | 3. Gündə üç dəfə ciddi rejimlə yemək verirlər. Çay da verirlər. |
| 4. Oxumağa yaxşı kitablar yoxdur. | 4. İdmanla nə qədər desən məşğul oluruq. |
| 5. Uşaqların bir qismi pis xasiyyətlərini büruzə verdilər. Buna görə kefim pozulur və əsəbiləşirəm. | 5. Kollektivi yaxşı tanımaq imkanı yarandı. Kiminlə dostluq etmək lazım gəldiyi aşkar oldu. |
| 6. Nailədən ayrı düşmüşəm, onu görə bilmirəm. Ondan ötrü çox darıxıram. Danışıb səsini də eşidirəm. | 6. Nailə ilə məktublaşıram. Yazıram və cavab alıram. Bakıda bu olmayacaqdı! Üstəlik, telefonla. |
| 7. Gəncənin havası pisdir, çünki alüminium zavodunun tozu və tüstüsü havanı zəhərləyir. | 7. Havalar əsasən sərin keçir, günəşin təsirindən qorunmaq çətin deyil, çünki ağac və kölgəliklər çoxdur. |
| 8. Çox narahat həyat keçiririk. Tez-tez stroy (sıralanmaq), razvod (dağılmaq) və sair canımızı boğazımıza yığıb. | 8. Yaxşı yatırıq (gecə saat 22-dən səhər saat 6-ya kimi). Günorta 2-dən 4-ə kimi yenə yatırıq. Vaxtımızın bir hissəsini də kölgəliklərdə dincəlirik. |


4. Охумаға јахшы китаблар јохдур. | 4. Идманла нә гәдәр десән мәшғул олуруг.

Məlum oldu ki, üç rotanın arasında birinci biz imtahan verəcəyik. Buna çox sevinirik, nəhayət buradan xilas olmağımıza cəmi 7-8 gün qalmışdır. Bu gün, yəni 18 avqustda günortadan sonra 2-3 saat ərzində bizə əleyhqazları təmizlətdilər, lap zəhləmizi tökdülər.

**Qeyd.** Əleyhqaz sözü rusca yazılıb: противогаз.


нәһајәт бурадан хилас олмағымыза јәни 7-8 күн галмышдыр. Бу күн, јә'ни 18 августда күнортадан сонра 2-3 саат әрзиндә бизә противогазлары тә-мизләтдиләр, лап зәһләмизи төкдүләр.

Bu gündən imtahanlara hazırlaşmağa başlayırıq. Vaxt çoxdur, buna görə hər gün 3-4 saatla kifayətlənmək olar. Taktikanı başlamışıq. Axşamüstü Hüseynlə şəhərə qaçmaq istədik, ancaq baş tutmadı.

Bakıda xəstələndiyim yadıma düşdü. Onda Nailə mənə qarşı necə də mehriban idi. Əlbəttə, mənim yoldaşlarımın yanında mənə qulluq etmək onun üçün rahat deyildi. O biri tərəfdən isə öz ev adamları da (anası, bacısı) Nailənin mənim yanıma gəldiyini görürdülər, bu da onun üçün, yəqin ki, xoşagələn deyildi. Ancaq o, mənim xətrimə bu narahatçılığın üstündən keçirdi.

Digər tərəfdən, onunla boya-pudra haqqında mübahisəm yadıma düşür. O, bunlardan çox az istifadə etdiyini bəhanə gətirib, özünün haqlı olduğunu sübut etmək istəyirdi. Mən isə boya-pudradan istifadəni qətiyyən istəmədiyimi bildirirdim. Mən düzgünmü edirdim? Axı bunda nə işin var? "Ey Hamlet, sən nə qəribəsən?" Ey Hamlet, gəl dərindən fikirləşək, deyəsən, sən haqlısan, niyə hər şeydə ona güzəştə gedirsən? Axı necə yəni sənin nə işin var? Axı o, başqası deyil ki!.. Təbii gözəllik, sadəlik nə üçün süniliyə qurban olsun? Axı gənc qız gəncliyini niyə boyalarla bürüzə versin? Axı o, boyaqçıdır, suvaqçıdır, yoxsa nə?! Əlbəttə, mən heç vaxt öz iradəmi zorla başqasına qəbul etdirmək istəmərəm. Bəlkə də mən istədiyimə bu yolla nail ola bilərəm, ancaq nə üçün? Ən iti qılınc və ən böyük nemət məgər söz deyilmi? Sözlə təsir etməyi isə mən bacararam...

**Qeyd.** Bu gəncin qızlar və boya barədə sadəlövh düşüncələrinin əsasında nə dayanırdı? Mütləqiyə varmayan, "düzgünmü edirəm?" deyə şübhələrini də bildirən, öz "qəribəliyi"ni də yada salan bu gəncin anti-boya fikirlərinin əsasında nə dayandığını qısaca anlatmaq istəyirəm. O dövrdə şəhər və kənd arasındakı fərqlərdən biri qız və qadınların geyiminə, bəzəyinə, rəftarına münasibətlə bağlı idi. Kənd gözəllik fəlsəfəsinə görə qız və qadın abırlı geyimi və abırlı, utancaq davranışı ilə seçilməli, saf, təbii, "boyasız" gözəlliyi əsas tutub süni gözəlləşdirici vasitələrdən uzaq durmalıdır. Üstəlik, belə gözəllik fikri elə-belə kənd düşüncəsinin, kəndçinin məhsulu deyildi, şair və yazıçıların vəsf etdikləri gözəllik meyarlarından qidalanırdı (əslində bu şair və yazıçıların əksəriyyəti kənddə yetişmiş insanlar idi). S. Vurğunun "Rəhbərə salam" şeirini xatırlamaq kifayətdir:

Bakının sayrışan yıldızlarından
Çadrasız, boyasız türk qızlarından
................................................
Salam gətirmişəm hüzuruna mən
Bu gündən, gələcək qərinələrdən.


Мән дүзкүнмү едирдим? Ахы бунда нә ишин вар? „Еј Һамлет, сән нә гәрибәсән?!“

***

Bir neçə söz mənim sevimli sənətim riyaziyyat haqqında. Çağdaş riyaziyyat müxtəlif budaqların,

şöbələrin birliyidir. Bu sahələrdən birində fəaliyyət göstərən hətta ən böyük riyaziyyatçı-mütəxəssis belə digər sahə haqqında dərin təsəvvürə malik olmur. Buna görə bu sahələrdən biri ilə ciddi məşğul olmaq lazım gəlir. Görünür ki, mən professor Mirabbas Qasımovun rəhbərliyi altında diferensial operatorlar, daha dəqiq desəm, diferensial operatorların spektral nəzəriyyəsi ilə məşğul olacam. Bunun üçün hər şeydən əvvəl, funksional analiz, riyazi fizika və analitik funksiyalar nəzəriyyəsinin əsasları ilə dərindən tanış olmaq, həmçinin, kvant mexanikası ilə müəyyən tanışlıq lazımdır.


Несколько слов о математике, о моей любимой профессии.

Mənim öyrənmə planım təqribən belədir:


I Функ. анализ: 1° Ахиезер, Глазман 2° Иосида
3° Колмогоров, Фомин, 4° Гохберг
Крейн 5° Наймарк (Н.к), 6° Гельфанд,
Шилов, 1,4.
II Теория анал. ф: 1° Евграфов 2° Евграфов
3° Лаврентьев, Шабат. 4° Маркушевич,
5° Левин 6° Хейман 7° Хёрмандер.
III. Матем. физика: 1° Петровский 2° Михлин
3° Шилов II 4° Кузнецов
IV. Квантовая физ: 1° Сигал 2° Ландау, Лифшиц. 3° Фейнман. 8,9,1
V Смежные области: 1° Гельфанд 2° Псевдо-диф. оп.
3° Погорелов а) А.г., б) д.г. 4°
VI Спектральная теор. диф. оп: 1° Наймарк (Л.д.
2° Титчмарш 3° Коддингтон, Левинсон
4° Глазман 5° Левитан 6° Левитан, Гасымов
7° Аткинсон

Göründüyü kimi, burada 30-dan artıq kitab adı var. Tanış olduğum bütün bu kitablar mənə lazımdır, onlar mənim, necə deyərlər, elmi maraqlarım üçün zəruri fundament əmələ gətirməyə kömək edəcək. Buradan nəticə çıxır: təhsilimin 5-ci ilində çox ciddi məşğul olmalıyam, bir saniyə belə itirmədən. Yüksək riyazi mədəniyyətə malik olmaq lazımdır...

**Qeyd.** "Bir gün belə itirmədən" ifadəsi daha təbii olardı, hətta "Bir saat belə itirmədən" ifadəsi də məqbul sayılardı. Gənc tələbənin yəqin ki, özünün də fikir vermədiyi maksimalizmi "bir saniyə belə itirmədən" deyir.



Нужно обладать высокой математической культурой...

"Spektral analizin tərs məsələləri" – mənim ən dar riyazi ixtisaslaşmam olmalıdır. Hamlet, irəli! 3-4 ildən sonra Azərbaycanda yaxşı riyaziyyatçılardan biri sayılmalı, 6-7 ildən sonra isə...

**Qeyd.** "Bir neçə söz" ifadəsi ilə başlayan və "6-7 ildən sonra isə..." ifadəsi ilə bitən hissə orijinalda rusca yazılmışdır.

**Qeyd.** O zaman nəzərdə tutduğum "Spektral analizin tərs məsələləri" mənim əsas riyazi ixtisaslaşmam olmadı.

**Qeyd.** Universitet təhsilimin 5-ci ilində professor Mirabbas Qasımovla diplom işi yazsam da, amma mövzunu özüm seçmişdim: öz-özünə qoşma olmayan operatorların spektral nəzəriyyəsi. Bakıda universiteti bitirdikdən sonra isə Lomonosov Moskva Dövlət Universitetinə getdim.

**Qeyd.** Əlbəttə, o gəncin gələcək haqqında düşüncələrində gəncliyə bağışlana bilən özündən razılıq havası görünür. O, özünə plan yazdığı 1969-cu ildən 4 il keçmiş, 1973-cü ildə fizika-riyaziyyat elmləri namizədi (PhD) adı almaq üçün dissertasiya müdafiə etdi.

***

Son günlər həddindən artıq yavaş və yeknəsəq keçir. Çox darıxıram. Hər gün 3-4 saat oxuyur, qalan vaxtda isə futbol oynayırıq və ya dincəlirik (hərə öz bildiyi şəkildə). Elmxan da cərgəmizə qoşuldu, sanitariya şöbəsindən çıxıb kazarmaya qayıtdı. Çox çay içirəm, xüsusilə axşamlar; həmişə də tərlədir, köynəyim yaş olur. Xalis avaraçılıqdır.



Халис аварачылыгдыр.

Avqustun 21-də Bakıdan polkovnik Məhərrəmov gəldi. Məlum oldu ki, imtahanımız ayın 25-də olacaq, yəni, əvvəl bildiyimizdən bir gün gec. Bu, bizi xeyli pərt etdi.

Nəhayət, avqustun 23-də (həftənin 5-ci günü) hamamdan sonra öz paltarlarımızı verdilər! Bu günü xüsusi bayram kimi gözləyirdik. Kazarmada böyük hay-küy var, daha heç kim komandirlərin sözünə qulaq asmır. Hiss olunur ki, "həbsxana"dan qurtarırıq, cəmi ikicə gün qalıb, ikicə gün.



Һисс олунур ки, „һәбсханадан" гуртарырыг, ҹәми икиҹә күн галыб, икиҹә күн.

24 avqust. Günortadan sonra, saat 4-ə yaxın poçtalyonun səsini eşitdim: "İsayev Hamlet, sənə məktub var". Təəccübləndim, axı məktub kimdəndir? Nailə bilir ki, bu günlərdə əsgərliyimiz bitir, evə gedəcəyik, bu səbəbdən o, məktub yazmaz. Bəs başqa kimdən ola bilər məktub? Məktubun üzünə baxan kimi tanış xətti tanıdım: yoldaş Əsgərlidəndir! Çox sevindim, sonra isə bir az təşvişə düşdüm, bəlkə nəsə olub, ona görə tez-tələsik məktub yazıb? Hətta ağlıma axmaq bir fikir də gəldi ki, yəqin... Öz-özümə məktubun "məzmununu" düşünməyə başladım: "... Hamlet, məni bağışla", yox, rus dilində: "... Гамлет, прости меня, другого выхода не было (Hamlet, məni bağışla, başqa

yolum qalmadı). Məni unutmağa çalış, mən isə səni unutmağa çalışsam da, tez unuda bilməyəcəm. Ты - мой послушный и умный мальчик (Mənim sözəbaxan və ağıllı oğlanım), mən sənə çox hörmət edirəm. Ancaq ... olmadı... Bacarsan, bizim həyətdə yaşama. Axı, artıq bu hər ikimiz üçün ağırdır. Прощай, мой?!.. Гамлет!.. (Əlvida, mənim?!.. Hamletim!..)".

Bu dəhşətli fikri başımdan rədd etmək üçün tez məktubu açdım. Bu yenə mənim və ... yalnız mənim Nailəm idi. Onu başa düşdüm, darıxmışdır; yaxşı başa düşürəm, çünki darıxmaq hissi məni lap tez-tez bürüyür.


Чох
севиндим, сонра исә бир аз тәшвишә дүш-
дүм


„... Гамлет, мәни бағышла", рах...
рус дилиндә: „... Гамлет, прости меня,

Budur məktubdan bəzi sətirlər:

"... Mənim ruhum hər axşam gəzməyə çıxmağa adət etdiyinə görə axşamlar evdə otura bilmirəm, anamı da götürüb bulvara gəzməyə çıxıram və ya kinoya gedirik. Görürsənmi mən necə də yaxşı qız olmadım".

"Hər səhər yuxudan qalxıram və vərdiş etdiyimə görə sizin qapıya baxıram, amma təəssüf ki, səni orda görmürəm və çox kədərlənirəm".

"Maraqlıdır, sən bu il burda yaşayacaqsan, ya başqa yerə köçəcəksən? İstərdim ki, heç yerə getməyəsən. Yaxşı, daha nə yazım sənə. Bir sözlə, tez gəl, sənsiz çox darıxıram".

**Qeyd.** Məktub orijinalda rusca yazılıb.


„... А так как моя душа привыкла
каждый вечер ходить гулять, поэтому
по вечерам я не могу сидеть дома,
беру маму и иду гулять на бульвар
или же в кино. Видишь какая я
не хорошая девушка стала".
„Каждое утро я встаю и по при-
вычке смотрю на ваши двери, но к со-
жалению тебя там не вижу и мне
становится очень грустно"
„Интересно в этом году ты будешь
здесь жить или переедешь куда-нибудь.
Хотелось бы чтобы никуда не переез-
жал. Ну что ещё тебе написать.
Одним словом скорее приезжай я
очень скучаю по тебе"...

Mənim Nailəciyim, bilirsən mən səndən ötəri necə darıxıram? Bunu təsəvvür belə edə bilməzsən...

**Qeyd.** "Bilirsən" kəlməsi istisna olmaqla bu cümlə orijinalda rusca yazılıb.

Hamımızın (Mən, Elmxan, Abbas,...) pulumuz qurtarıb, qəpik də qalmayıb. Nə yaxşı olardı Nailə ilə bir dəfə telefonla danışsaydım...


Һамымызын (Мән, Е., А. ...) пулумуз гуртарыб, гәпик дә галмајыб. Нә јахшы оларды N.-ылә бир дәфә телефонла данышсајдым...

***

25 avqust!!! Axırıncı gün!!! Nəhayət...!!! Gəldi!!!

Səhər saat 9-da imtahan başlandı. Birinci içəri girən 4 nəfərdən biri mən oldum. Saat 10-da artıq çıxmışdım, hələ qiymətləri demirdilər, ancaq hiss edirdim ki, bilirdim ki, "əla" almışam.

Əsl darıxdırıcı vaxt bundan sonra başladı. Axşama kimi işləməliydik (ərazinin təmizlənməsi), yoxsa öz paltarlarımızı geyinməyə qoymurdular. İki-üç dəfə podpolkovnik Rıkov bizi geri-işləməyə qaytardı. Nəhayət!.. axşam saat 7-də paltarımızı dəyişdirməyə icazə verdilər. Nəhayət!.. öz paltarımızı geyindik.


25 август!!! Ахырынҹы күн!!! Нәһајәт...!!! Кәлди!!!

İki nəfərin giriş qapısında durub, məni çağırdığını xəbər verdilər. Gedib gördüm ki, Akif (dayıoğlu) və onun bir yoldaşıdır. Çox sevindim. Mən, Elmxan, Hüseyn və Akif birlikdə şəhərə çıxdıq. Gecə yarı (saat 4-də) Bakı-Tbilisi qatarı ilə getməliydik. O vaxta kimi gəzdik, yedik-içdik, Hüseynin əmisi oğlu Hüseyngilə getdik. Sonda, gecə saat 12-də vağzala gəldik. Söhbətimiz burda davam etdi.

Nəhayət!.. gecə saat 4-də qatara mindik. Əlvida, 56 günlük əsgərlik həyatı, əlvida!!! Əlvida!


Нәһајәт!... кечә саат 4-дә гатара миндик. Әлвида, 56 күнлүк әскәрлик һәјаты, әлвида!!! Әлвида!

(*Son*)


(Сон.)

## "XƏZƏR"İN TƏLƏBƏSİNİN MƏQALƏSİ *TEHSİL.BİZ* SAYTINDA

## ARTICLE BY KHAZAR UNIVERSITY STUDENT ON *TEHSIL.BIZ*

Humanitar, təhsil və sosial elmlər fakültəsinin tarix müəllimliyi ixtisası üzrə ikinci kurs tələbəsi Mənsurə Cəbiyevanın 2022-ci il mayın 8-də *tehsil.biz* saytında "Suriya" adlı məqaləsi dərc olunmuşdur.

Məqalədə zəngin tarixi irsə və sivilizasiyaya malik olan Suriyanın tarixindən və qədim şəhərlərindən, arxeoloji qazıntılar zamanı üzə çıxarılmış arxeoloji abidələrindən bəhs olunur.

On May 8, 2022, Mansura Jabiyeva, the second year student majoring in history teaching at the School of Humanities, Education and Social Sciences, published an article entitled "Syria" on the website *tehsil.biz*. The article discusses the history and ancient cities of Syria, which has a rich historical heritage and civilization, as well as archaeological monuments discovered during archaeological excavations.

*https://tehsil.biz/news/az/37829/Suriya%C2%A0-TARX*

## DEPARTAMENT MÜDİRİ *AZTV*-NİN "ƏSAS MƏSƏLƏ" VERİLİŞİNDƏ

## HEAD OF DEPARTMENT IN *AZTV*'S "MAIN ISSUE" PROGRAM

2022-ci il mayın 11-də Tarix və arxeologiya departamentinin müdiri dosent Telman Nüsrətoğlu *AZTV*-nin "Əsas məsələ" verilişinə qonaq olmuşdur. Telman Nüsrətoğlu Qarabağ və Şərqi Zəngəzurun yenidən bərpa edilmə prosesi və Cənubi Qafqaz regionunda təminatlı sülhə nail olmanın yollarıyla bağlı fikirlərini tamaşaçılarla bölüşmüşdür.

On May 11, 2022, the head of the Department of History and Archeology, Associate Professor Telman Nusratoglu was a guest on *AZTV's* "Main Issue" program. Telman Nusratoglu shared his views on the process of reconstruction of Karabakh and East Zangazur and ways to achieve a secure peace in the South Caucasus region.

## ÖLKƏ SAYTLARI: XƏZƏR UNİVERSİTETİ SOCAR VƏ ONUN TƏRƏFDAŞLARI İLƏ BİRGƏ "İNKİŞAF İQTİSADİYYATI AKADEMİYASI" LAYİHƏSİNİ HƏYATA KEÇİRƏCƏK

## COUNTRY WEBSITES: KHAZAR UNIVERSITY TO IMPLEMENT "DEVELOPMENT ECONOMICS ACADEMY" PROJECT WITH SOCAR AND PARTNERS

2022-ci il mayın 18- 20-də media vasitələri bu barədə xəbər yayımlayıb. Layihənin mühüm əhəmiyyətini nəzərə çatdıran xəbərlərdə qeyd olunur ki, əsas məqsəd Massaçusets Texnologiya İnstitutunun "Data, İqtisadiyyat və İnkişaf Siyasəti" MikroMagistr Proqramı üzrə 20 azərbaycanlı tələbənin ödənişsiz əsasda təhsil almasına töhfə verməkdir. Buna görə də, tərəflər Azərbaycanın iqtisadi inkişafında müasir dövrün tələblərinə cavab verən yüksək ixtisaslı gənc mütəxəssislərin yetişdirilməsinin vacibliyini vurğulamışlar.

*https://resmixeber.az/article/az/113993* və s.

On May 18, 2022, about 20 media outlets reported about this issue. The main goal of the project is to contribute to the free education of 20 Azerbaijani students in the Massachusetts Institute of Technology's "Data, Economics and Development Policy" MicroMaster Program. Therefore, the parties stressed the importance of training highly qualified young professionals who meet the requirements of modern times in the economic development of Azerbaijan.

*https://resmixeber.az/article/az/11399 etc.*

CREATIVE SPARK

PICASP
Erasmus + Project

## *CREATİVE SPARK* və *PICASP* LAYİHƏLƏRİ ÇƏRÇİVƏSİNDƏ TURİZM İXTİSASININ TƏLƏBƏLƏRİ İLƏ GÖRÜŞ

Aprelin 26-da Xəzər Universiteti İnkişaf Mərkəzinin əməkdaşları ilə turizm ixtisasının tələbələri arasında *Erasmus+ PICASP* və *Creative Spark* layihələri çərçivəsində görüş keçirildi.

Tələbələr layihələr və layihə çərçivəsində təşkil olunan müsabiqələr haqqında ətraflı məlumatlandırıldılar.

İnkişaf Mərkəzinin layihə menecerləri Məhin Cəbrayılova və Səbinə Quliyeva Creative Spark Big İdea Challenge yarışması, müsabiqənin şərtləri, mərhələləri mövzusunda izahat verdilər.

## MEETING WITH STUDENTS MAJORING IN TOURISM WITHIN *CREATIVE SPARK* AND *PICASP* PROJECTS

On April 26, a meeting was held between Khazar University Development Center staff and tourism students as part of the *Erasmus + PICASP* and *Creative Spark* projects.

Students were informed in detail about the projects and competitions organized within the project.

Project Managers of the Development Center Mahin Jabrailova and Sabina Guliyeva gave explanation the Creative Spark Big Idea Challenge, the terms and stages of the competition.



# *"CREATİVE SPARK"* LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ NÖVBƏTİ BOOT CAMP

# NEXT BOOT CAMP WITHIN *CREATIVE SPARK* PROJECT



Aprelin 27-də Xəzər Universiteti və London Middlesex Universitetinin əməkdaşlığı ilə British Council tərəfindən maliyyələşən *"Creative Spark"* layihəsi çərçivəsində Enterprise Hub platforması daxilində Təbiət elmləri və mühəndislik fakültəsinin tələbələri üçün növbəti boot camp təşkil olunub.

On April 27, Khazar University and the University of Middlesex in London, in partnership with the British Council-funded *Creative Spark* project, organized another boot camp for students of the Faculty of Science and Engineering within the Enterprise Hub platform.




Tədbirin ilk hissəsində Climasel startapının təsisçisi Güllü Hüseynli təqdimatla çıxış edərək, öz uğur hekayəsindən bəhs etdi. O, tələbələrə "startap necə qurulmalı, hansı addımlar atılmalı" mövzusunda danışdı.

Görüşün 2-ci hissəsində Xəzər Universiteti İnkişaf Mərkəzinin direktoru Raziyə İsayeva Creative Spark layihəsi çərçivəsində keçirilən silsilə tədbirlərin məqsədi və əhəmiyyətindən bəhs edib. Sonra tələbələr qruplar şəklində öz biznes ideyaları üzərində işləyiblər.

Bootcampın sonunda komandalar öz biznes ideyalarını təqdim ediblər və İnkişaf Departamentinin layihə meneceri Məhin Cəbrayılova onlara öz məsləhətlərini verib.

In the first part of the event, the founder of Climasel startup Gullu Huseynli made a presentation and told about her success story. She told the students "how to set up a startup, what steps should be taken."

In the second part of the meeting, Raziya Isayeva, Director of the Khazar University Development Center, spoke about the purpose and importance of a series of events held as part of the Creative Spark project. Then the students worked in groups on their business ideas.

At the end of the bootcamp, the teams presented their business ideas and Mahin Jabrailova, Project Manager of the Development Department, gave some recommendations.

# ПЕРЕПИСКА С ЛИТОВСКИМ ДРУГОМ

**Дорогой друг Гамлет Исаханлы!**

*Думаю Вам было известно мое первое письмо моему латышскому армейскому другу Ивару Элерту, специалисту по вычислительным машинам и активному политическому деятелю Латвии в последней декаде XX века. Это письмо было написано в качестве ответа на письмо Ивара от 1989-го года, где нам предлагалось отдать Нагорный Карабах армянам и тем самым закончить эту бессмысленную войну. В своем ответном письме я постарался разъяснить ему историю этого вопроса, а также объяснить почему его совет несправедливо по отношении к нам и поэтому неприемлемо. Это письмо широко распространялось и стало книгой под названием «Письмо Другу».*

*Тогда я послал это письмо и другим своим знакомым в качестве предупреждения, чтобы не получить от них письма подобные письму Ивара. Адреса моих посланий были в разных городах и разных странах: в Германии – Билефелд и Эслинген, в Росии – Москва и Ленинград, в Украине – Киев и Харков, в Узбекистане – Самарканд и Фергана, в Латвии – Рига, Екабпилс и Лиепая, в Литве – Вильнюс и Каунас. И ответное письмо, полученное мной из Каунаса, от моего литовского друга Витаутаса Каргаудаса, ныне профессора Каунассккого Технологического Университета, еще тогда привлек мое внимание своей корректностью, взвещенности выбранных слов и логичностью рассуждений.*

*И тогда же я написал ему обстоятельный ответ для исправления некоторых изянов в его письме, связанных с однобокостью и неполноценностью информаций имеющийся у него о положении дел в регионе конфликта. В течении последних 30-и лет, эти писма лежали в моем архиве и ожидали своего часа. Об этих письмах имели понятия только мое близкое окружение (состоящих из физиков и математиков). А после 44-х дневной войны, начатой 27-го сентября 2020-года, в результате которой Армения подписал акт (трехсторонный) о капитуляции, начался новый этап информационной войны.*

*Вот в такой ситуации я решил вытащить из темноты забытия на свет Божий эти два письма в качестве некоторой, пусть маленькой лепты в этой войне, которая продолжается без перерыва по крайней мере в последние 200 лет. Подумал возможно эти письма могут представлять также некоторых ценностей для нашего подрастающего поколения, в первых рядах которого занимает свое достойное место студенты Университета Хазар-.*

*С наилучшими пожеланиями*

**Ваш Исмихан Юсубов**

## ПИСМО ЛИТОВСКОГО ДРУГА

**Каунас 27.06.1989**

**Дорогой Исмихан!**

Получил самое длинное письмо которое когда либо пришло ко мне. Прочитал и задумался. Во первых, если Ты все это писал, значить это очень важно для Тебя. Я понимаю это.

Вторая моя мысль. У нас многие (наверное большинство) поддерживают армян. Причин тут много. Но я не разделяю этого мнения. То же самое я мог бы сказать и до Твоего письма. И вот почему. Для того чтобы судить об этом, надо 1) хорошо разобраться в истории этого вопроса; 2) выслушать обе стороны.

Если бы правда была бы только на одной стороне, то возможно, проблему уже давно бы решили. Это последнее наверное самое главное. Я думаю, что к сожалению, есть много аргументов, которые говорят в пользу азербайджанцев, но есть также правильных жалоб и у

армян. Например мне трудно поверить, что у армян вообще нет собственной земли и никакого права на нее. Вообще, вес этот конфликт – это конфликт права. Поэтому решение и взгляд на него зависит от моральных и этических норм. Эти нормы создаются самими народами (или не создаются, тогда конфликт решается *силой*, но решение опят же объясняется какими то правами). Вот поэтому я очень сожалею, что во первых, нет никаких переговоров, поиска решения на компромис–се; во вторых, нет признанных руководителей ваших народов, которым доверяли ваши народы и которые могли бы вести эти переговоры.

Ты прости, Исмихан, что я не встал на Твою сторону против армян. Но я также и не на стороне армян против азербайджанцев. Я на стороне обоих потерпевших. Также я думаю, что вашим народам со стороны помочь очень трудно – как и семье, где муж и жена поссорились. Нужно обоим как то морально дозреть до решения, которое примерно одинаково удовлетворяло обоих. Решение, которое полностью удовлетворяло обоих бы – нет! И когда большинство армян и большинство азербайджанцев поймут вот это, то это уже будет фундамент, на котором можно будет построить компромисс. Это очень сложно, что мы и видим.

Мы от 10 до 17 июля будем в Польше в экскурсии. А остальное время в нашей усадьбе. Если Ты в Берлин поедешь поездом через Москву-Вильнюс-Варшаву, то Ты проедишь от моей усадьбы на расстоянии 1 км. Зайдите к нам на обратном пути. Для этого надо выйти на станции Гродно (у границы с Польшей) и потом приехать пригородным поездом до ст. Марцинконис (всего около 2-х часов езды и этих поездов примерно 4 в сутки). Поезд Берлин-Москва тоже проходить эту станцию, но не остановливается. Можно ехать этим поездом до ст. Варена, а потом 30 км обратно пригородным поездом. Я не помню, останавливаться ли в Варне этот международный поездь. Если ты напишешь когда Вы приедите, то я вас встречу. А если нет, то найти надо по приложенной схеме.

Пиши! Приезжай! Ничего с собой не бери, у меня найдем все. Отдохнете, будем грибы собирать, купаться. Крутом леса на десятки км.

**Витас**

## ОТВЕТ ЛИТОВСКОМУ ДРУГУ

*Баку 18.12.1989*

**Дорогой Витас!**

Во первых большое спасибо за интересное письмо, а также за газеты, посланные Тобой в 27.06.89 году и которых я получил 8.07.89 года до моего отъезда в ГДР. Большое спасибо также от нашей семьи за радушное приглашение нас на Вашу прелестную дачу, которую мы успели полюбить заочно по Твоим рассказам. Надеюсь придет время и для очного любования вашей дачей.

Что касается Вашей позиции, то она вполне устраивает меня и я ожидал от Тебя именно такого ответа. Просто у меня есть некоторые замечания, которые как мне кажется, поможет Тебе уточнить мою позицию в этом вопросе. Ты пишешь: «Например мне трудно поверить, что у армян вообще нет собственной земли и никакого права на нее». А разве я говорил, что они не имеют право на землю? А вся территория нынешней Армянской ССР разве не ихняя земля? В Советском Союзе нет другой нации, которая имея собственную республику, имела бы также автономию на территории другой республики. Это аномалия (заранее предсмотренная) и порождает теперь, в переходной период, в период «тектонической активности», новую еще большую аномалию, т.е. отторжению части одной республики и присоединению к другой. Если не ошибаюсь, компактно живущие поляки подняли у вас вопрос об автономии. Как Ты думаешь, насколько хорошо будет дасть им автономии

и вслед за этим, по просьбе и требованию этой новоиспеченной автономии, разрешить им воссоединиться с Польшей? Армяне в какой то мере как цыгане рассыпаны по всему земному шару и там где живут организуют общины, которые берут на себя слишком многое, а именно дело представляют и себе, и другим таким образом, как будто бы все важнейшие дела в этих регионах решаются ими, или же в худшем случае не могут решены без них. Этот самообман и создает того миража, которая и приводит к заблуждению как самих армян, так и других наций.

Один маленький и самый свежий пример: 200 000 азербайджанцев, которых выгнали из Армении буквально за считанные дни, все прибыли в Азербайджан (если прибавить к ним еще 20 000 месхетинских турок, то нетрудно видеть у какой опасной черты находится наша республика). Армяне же покинувшие нашу республику не едут в Армению. Они едут жить в Краснодар и в Ростов на Дону (подготовка к новой автономизации). Едут в Москву, в Ленинград, в вашу Прибалтику. Едут в Америку и в другие зарубежные страны. При этом спокойно продают свои дома или же делают выгодный обмен (не взирая ни в какие обстановки). Армянская ССР обвиняет всех в том, что они (союзные республики) не выполнили план восстановительных работ в районах землятрясения. А что сделали они сами за этот год? Ровным счетом ничего. Все кричат «Миацум!» («Воссоединение!») и только, а черную работу оставляют второсортным народам, которые должны восстановливать за них разрушенное.

В последнее время они подняли большого шума относительно блокады железных дорог. Считают (лицемерно) эту блокаду источником всех бед и требуют дать политическую оценку этому событию и наказать нас аналогическими санкциями со стороны Союза (и добиваются результатов в этом направлении). Если хочешь знать, то блокаду начали они сами, блокировав сначала азербайджанских сел в Армении и НКАО (Нагорно Карабахская Автономная Область). Потом они выгнали всю населению этих деревень из Армении и хотели бы выгнать также из НКАО. Но это пока им не удалось.

Но блокада азербайджанских сел в НКАО продолжается и сегодня. Мы оказываем им помощь только вертолетами с воздуха. Каждый день идут перестрелки и в НКАО, и в приграничных районах с Арменией. Они нападают, а наши защищаются, точно также как и на наших высших форумах в Москве и в других местах. Они обстреливают также наших вертолетов, которые оказывают материальную помощь нашим селам в НКАО.

Еще один эпизод: если помнишь, на I съезде на выборах в Верховный Совет из НКАО были выбраны два депутата – армянин Погосян и азербайджанец Джафаров. И это было вполне естественно, т.к. там жили в основном люди этих двух племен. Но армянская делегация и поддержавшие их силы подняли большой шум и добились того, что съезд отменил результатов предыдущего голосования и решили голосовать заново, уже за трех кандидатов (Балаян, Погосян и Джафаров) на два депутатские места в Верховном Совете (Зорий Балаян – армянин, который охарактеризован в моей книге «Письмо Другу»). Они надеялись, что на этот раз пройдут два армянина – Балаян и Погосян. И когда наш делегат умолял съезда не делать этого, что из автономной области где 25% населения азербайджанцы, будет нехорошо, если оба представителя будут армянами, то ректор Ереванского университета Амбарцумян берет слово и говорит: «Товарищи, очень хорошо здесь отметил академик Лихачев, что прежде всего надо иметь культуру, культуру парламентскую (а Лихачев говорил об этом совсем по другому поводу – маленькая армянская хитрость). А делегат из Азербайджана, как видно, далек от этого. Мы уже решили проголосовать заново, а он опять за свое – не надо, умоляю и т.д.». Вот примерно, что он говорил. Теперь я спрашиваю: когда армяне поднимая вой и вопл добиваются отмены результатов голосования тысяч человек, то это считается парламентской культурой, а когда попавший в неловкое и невыгодное положение азербайджанский делегат хочет сказать несколько слов за оправдания результата предыдушего голосования, то его тут же обвиняют в парламентской безкультурье, насколько это справедливо? К счастью,премье в результате нового голосования Джафаров набрал голосов больше чем Погосян и Балаян вместе взятые и Балаян не прошел в Верховный Совет.

Эти разговоры нескончаемы, но я ставлю точку.

Я вполне согласен с Тобой в том, что нет у нас признанных руководителей, которые могли бы обсудить этот вопрос от имени народов и пришли бы к общему знаменателю. Но я согласен с Тобой частично (есть замечание). Дело в том, что такие умные и уважаемые люди были (и по всей вероятности есть и теперь) во всех закавказских республиках. Но их всех уничтожили в 20-е годы, остальных в середине 30-х годов. Если бы была создана Федерация Закавказских Республик, то это место было бы земным раем, никак не меньше. Люди зажили бы здесь лучше чем в Америке. Но это не нравилось и не нравится теперь очень многим сильным мира сего. Вот почему этот земной рай превращен в сущий ад, в пожарище где горит самые лучшие нравственные ценности у народов.

Еще Ты пишешь: «Ты прости, Исмихан, что я не встал на Твою сторону против армян». Дорогой Друг, я и не просил , чтобы Ты встал против армян. Достаточно, что они сами встали против себя, встали поперек своего добрососедского, мирного развития. Так, что Исмихан не только не обижается, а наоборот благодарит Тебя за Твою корректность.

Теперь несколько слов о наших личных делах. Во первых мы не могли ползоваться Вашим гостеприимством потому, что обратно из ГДР тоже летели самолетом. Все равно, еще раз большое спасибо за приглашения и за великолепный чертеж – путеводитель (дом соседа Луксис Альфонсаса все знают в деревни).

Мы пробыли в ГДР от 16-го июля по 4-го августа. Они представили нам отличное жилье и одну машину марки «Шкода». Жили как короли и все расходы они брали на себя. Мы не тратили даже ни один пфенниг на еду. А дома не давали нам даже чай налить самим себе. Все было очень мило и радушно организовано. Очень много гуляли, увидели (и слушали). Вот некоторые города и достопримечательности которыми мы любовались: Берлин, Потсдам, Дрезден, Лейпциг, Виттенберг, Галле, Кверфурт, Йена, Дорнбург, Йотеборг – эти города (были и другие). Основные достопримечательности: в Берлине Пергамонмузеум; в Потсдаме Парк Сан-Суси и усадьба «Цецилиенхоф» где были подписаны известные «Потсдамские документы» (Сталин, Трумен, Черчиль – потом Эттли кажется); в Дрездене «Картинная галерея» и «Музей транспорта»; в Лейпциге зоопарк и ботанический сад; в Виттенберге церков-башня Мартин Лютера и тезисы запечатленные на знаменитой железной двери; в Галле языковой центр где обучались наши друзья русскому языку; в Кверфурте самый большой и неприступный крепость в Европе, а также «Дом Ресторан охотников» где кормят только дичью; в Дорнбурге знаменитый замок; в Йене «Планетариум». Далее были на скачках, в кино, в разных ресторанах, а также пересекли речку на своих машинах с помощью парома, который отмечает в этом году свой 125 летний юбилей и который работает исползуя исключительно кинетическую энергию течения.

Отдыхали также у них на даче, где все было очень опрятно и красиво. В целом все наше семейство осталось довольным от этой поездки (А все ленты и слайды до сих пор лежат у меня не проявленными. Вот такие у нас дела, Дорогой. Вот почему я так долго не мог и письмо писать. Кстати, это второе мое письмо, первое письмо послал в ГДР).

Араз будет учиться на 8-ом, а Сеймур на 5-ом, оба они отличники и я на них не жалуюсь. Араз продолжает учебу также на музыкальной школе в классе скрипки. Джейран работает на старом месте (педагог на профтехучилище) и тоже не жалуется. Отец пока жив, но не очень здоров, ему уже 96 лет. Что касается меня, то много времени в последнее время отнимает у меня общественная работа. Всюду приглашают, тянут, заставляют, просят, правда пока не пугают. Я являюсь зам.секретарем партбюро факультета, член правления Народного Фронта факультета. Хотели выбрать также членом управления НФ Университета, но я сам снял свою кандидатуру несмотря на протесты друзей, мотивируя свое решение с недостатком лишнего времени и энергии.

Мое длинное «Письмо» схватил всех за живое и уже успели 5 раз выпустить самиздатовским способом (один раз НФА с картиной Араза на обложке, которую он рисовал без моего ведома). Часть «Письма» напечатал журнал «Молодость» (№8, 1989) и как мне сказали, эта же часть переведен журналом на азербайджанский и будет выходит в журнале «Гянджлик»

(«Молодость» на азерб.) (№11, 1989). Кроме того наш главный литературный журнал «Азербайджан» (гл. редактор Юсиф Самедоглы) просил, что бы я сам переводил «Письмо» на азербайджанский язык и примерно 30 страниц журнала (№2, 1990) уже выделили для этой статьи. А мои близкие друзья стараются выпустить «Письмо» отдельной брошюрой. Вот такие дела.

За последние два года написал также (в соавторстве) две книги. 1) «Элементы теории вероятности» (учебное пособие); 2) Руководство к решению типовых задач поставленных для уравнений математической физики (методические указания). Думаю подготовить также маленькую монографию по теории числовой области операторов и элементов нормированных алгебр.

Далее, у нас в университете создана школа-интернат с физико-математическим уклоном и меня пригласили участвовать в написании пособия по математике для этой школы (и для других тоже конечно). В науке не забываю родную «Числовую область», но и умеренно заразился теорией дифференциальных уравнений с периодическими коэффициентами и чуть-чуть физикой процессов описываемых этими уравнениями. Думаю пока хватит об этих вещах.

Да, чуть не забыл, 29.10.1989 г. мы отправили вам фруктовую посылку (гранат, айва, немного орешки и греческие орехи). Сообщите пожалуйста, если получили. Если же нет, то мы будем разузнавать почему.

Теперь Твоя черედь рассказывать о ваших новостях и о житье-бытье. Как у Тебя и у супруги со здоровьем? Как живут и работают Рута и Симас? Ждем Вашего ответа с нетерпением. Пока, всего наилучшего вам всем.

**Ваши Исмихан, Джейран, Араз и Сеймур**

**P.S.** Если Вам не очень трудно будет, то хотелось бы получать еще нескольких ваших свежих газет. Мы внимательно следим за вашей Республикой и сопереживаем с вами во всех ваших деяниях. У нас имеются хорошо налаженная связь с вашими неформалами.

**P2.S.** Наконец хочу вернуться к одной мысли в Твоем письме и высказать свои мнения по этому поводу. Ты пишешь: «У нас многие (наверное большинство) поддерживают армян. Причин тут много». Мне думается, что одной из причин (если не из главных) кроется в вероисповеданиях армян и азербайджанцев. Но совершенно искренно хочу Вас заверить, что эта причина не имеет под собой никакой более-менее серезной почвы. Во всяком случае с нашей стороны не дано было никакого повода (но повод всегда «найдется», если волк захочеть сесть ягненка) для организации крестового похода на нас со всего христианского мира. Народы мира и сам наш мир в целом ныне находится в таком психологическом состоянии, что люди охотно верят самым фантастическим добрым и злым слухам. Они легко обманываются потому, что сами этого страстно желают. Достаточно вспомнить ажиотаж вокруг летающих тарелок, инопланетян которые хотят нам помочь, достаточно вспомнить о миллионах людей сидящих каждое воскресенье у телевизора и жадно ловящих каждого незначительного жеста Кашпировского или же Чумака.

Ислам самая терпимая вера (Гегель-«Философия религии»), особенно к христианскому вероучению. О какой нетерпимости можно говорить, если все иудейские и христианские пророки и архангелы канонизированы в Исламе, только под другими, естественным образом трансформированными именами. Точно также, как и великого врачевателя Абу Али-ибн Сина на западе именуют Авиценна (Приложение. Адам-Адем, Ева-Хавва, Ной-Нух, Авраам-Ибрагим, Моисей-Муса, Давид-Дауд, Соломон-Сулейман, Иисус-Иса, Илия-Иляс, Гавриил-Джабраил, Михаил-Микеил и др.). Ислам добавляет к этому длинному списку лишь одно имя – имя Мухаммеда как одного из пророков, притом последного из них. Вот и все пока.

Azərbaycan Yaradıcılıq
Fondu

## AZƏRBAYCAN YARADICILIQ FONDUNDA "XƏZƏR XƏBƏR"İN ƏMƏKDAŞI İLƏ GÖRÜŞ

## MEETING WITH KHAZAR KHABAR EMPLOYEE AT AZERBAIJAN CREATIVE FOUNDATION

Mayın 12-də Azərbaycan Yaradıcılıq Fondunda "Xəzər Xəbər" jurnalının baş redaktor müavini, əməkdar jurnalist Əlirza Balayevlə görüş keçirildi.

Görüşü fondun sədr müavini, əməkdar mədəniyyət işçisi Rafiq Kaşanlı açaraq, görüşə gəlmiş tanınmış ziyalıları salamladı və Ə.Balayevi iştirakçılara təqdim etdi.

Ə.Balayev çıxışında yarım əsrlik jurnalistlik fəaliyyətinə nəzər salaraq, dəyişən dövrlərdə medianın xüsusiyyətlərindən və hazırkı böhranlı vəziyyətindən bəhs etdi. Çıxış edənlər – BDU İslam Araşdırmaları Mərkəzinin direktoru, fəlsəfə elmləri doktoru, professor Əsədulla Qurbanov, televiziya və kino rejissoru, Əməkdar incəsənət xadimi, Azərbaycan Kinematoqrafiya İttifaqı İdarə Heyətinin üzvü professor Oqtay Babazadə, sənətşünas,Üzeyir Hacıbəyli adına Azərbaycan Musiqi Akademiyasının professoru, Əməkdar incəsənət xadimi Zenfira Qafarova, aktyor Nazir Rüstəmov və digərləri müasir media ilə əlaqədar fikirlərini bölüşdülər, Azərbaycan dilinin işlənməsi ilə əlaqədar qüsurlara toxundular.

Sonda Ə.Balayev humanitar yönümlü ən müxtəlif sualları cavablandırdı.

On May 12, a meeting was held at the Azerbaijan Creative Foundation with Alirza Balayev, Deputy Editor-in-Chief of Khazar Khabar magazine, Honored Journalist.

The meeting was opened by the Deputy Chairman of the Foundation, Honored Cultural Worker Rafig Kashanli, who greeted the well-known intellectuals who came to the meeting and introduced A. Balayev to the participants. In his speech, A. Balayev looked at half a century of journalistic activity and spoke about the characteristics of the media in changing times and the current crisis.

Speakers - Director of the BSU Center for Islamic Studies, Doctor of Philosophy, Professor Asadulla Gurbanov, TV and film director, Honored Art Worker, Member of the Board of the Azerbaijan Cinematographic Union, Professor Ogtay Babazade, art critic, Professor of the Azerbaijan Music Academy named after Uzeyir Hajibeyli, Honored Art Worker Zenfira Gafarova, actor Nazir Rustamov and others shared their views on modern media, and touched upon the shortcomings in the use of the Azerbaijani language.

In the end, A.Balayev answered various questions on humanity.

## MƏFAİ-DƏ İTALYAN RƏSSAM MİKELANCELONUN "ADƏMİN YARADILMASI" ƏSƏRİNƏ HƏSR OLUNMUŞ TƏDBİR

## EVENT DEDICATED TO WORK OF ITALIAN ARTIST MICHELANGELO "CREATION OF ADAM" AT MEVLANA LITERATURE AND PHILOSOPHY RESEARCH INSTITUTE

Mayın 14-də Xəzər Universiteti Mövlana Ədəbi-Fəlsəfi Araşdırmalar İnstitutunun (MƏFAİ) ənənəvi "Açıq qapı" günündə məşhur italyan rəssamı və heykəltəraşı Mikelancelonun "Adəmin yaradılması" əsəri haqqında söhbət açıldı.

Bu əsər təxminən 1511-1512-ci illərdə Mikelancelo tərəfindən Sikstin kapellasının tavanında çəkilmiş fresko rəsmlərindən biridir. Freskoda Bibliyanın Yaradılış kitabındakı insanın yaradılması hekayəsinə əsasən Tanrının ilk insan olan Adəmə nəfəs verməsi təsvir edilib.

Əvvəlcə rəssam Mehdi Səmədi əsərin sənətkarlıq xüsusiyyətləri barədə dolğun məlumat verdi. Sonra Dr. Emin Əlilu əsəri insan beyninin anatomiyası baxımından təhlil etdi. Əsərdəki mələk təsvirlərinin insan beyninin ön, orta, arxa və s. hissələrinin yerlərinə uyğun olduğunu qeyd edən E. Əlilu Mikelancelonun qeyri-adi bir istedad və ilham nəticəsində insan beyninin bu gün belə tibb aləminə tam aydın olmayan gizli funksiyalarına bələd olduğu və onları öz yaradıcılığında tətbiq etdiyi barədə maraqlı bilgilər verdi və sualları cavablandırdı.

On May 14, the traditional "Open Day" of the Mevlana Literature and Philosophy Research Institute( MAFAI) at Khazar University, the famous Italian artist and sculptor Michelangelo's "Creation of Adam" was discussed. This work is one of the frescoes painted by Michelangelo on the ceiling of the Sistine Chapel in about 1511-1512. The fresco depicts the creation of man in the Bible book of Genesis, in which God breathed life into the first man, Adam.

First, the artist Mehdi Samadi gave detailed information about the artistic features of the work. Then Dr. Emin Alilu analyzed the work in terms of the anatomy of the human brain. Noting that the angelic images in the work correspond to the places of the front, middle and back of the human brain, E. Alilu gave interesting information about Michelangelo's extraordinary talent and inspiration, as he became aware of the hidden functions of the human brain, which are still not fully understood in the medical world today, and applied them in his work and answered questions.




## TƏLƏBƏLƏR PROQRAMLAŞDIRMA ÜZRƏ PRAKTİK BİLİKLƏRİNİ TƏKMİLLƏŞDİRMİŞLƏR

## STUDENTS IMPROVE PRACTICAL KNOWLEDGE ON PROGRAMMING

Mayın 13-də Xəzər Universiteti və "Coders Azerbaijan" şirkətinin əməkdaşlığı çərçivəsində tələbələr üçün proqramlaşdırma üzrə iki aylıq layihənin yekun tədbiri keçirilmişdir.

Layihəyə tələbələr imtahan yolu ilə seçilmişdi. İmtahandan uğurla keçmiş 25 tələbə 2 ay ərzində proqramlaşdırma üzrə praktiki bliklərini təkmilləşdirmişdir. 25 tələbədən 20-si təlim proqramını bitirmiş, onlardan 10-u yekun layihəsini təqdim etmişdir. Altı tələbənin layihəsi ekspertlər tərəfindən yüksək qiymətləndirilmişdir. Proqramı uğurla tamamlamış tələbələrə sertifikat və ilk 3 yerin qaliblərinə isə "Coders Azerbaijan" şirkəti tərəfindən pul mükafatı verilmişdir.

Tədbirdə Xəzər Univeristetinin rektoru dosent İradə Xəlilova, Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Dr. Fəxrəndə Əlimərdanova, Kompüter elmləri departamentinin müəllimi Behnam Kiani iştirak etmişlər. Sonda dosent İradə Xəlilova proqramı uğurla tamamlamış tələbələri və qalibləri təbrik etmiş, tələbələr üçün bu tip layihələrin davamlı olmasının zəruriliyini vurğulamışdır. "Coders Azerbaijan" Xəzər Universitetinə əməkdaşlığa görə təşəkkürünü bildirmiş və şirkətin hədiyyəsini təqdim etmişdir.

On May 13, Khazar University and "Coders Azerbaijan" hosted the final event of a two-month programming project for students.

Students were selected for the project through an exam. 25 students who successfully passed the exam improved their practical skills in programming within 2 months. 20 out of 25 students completed the training program, 10 of them submitted their final project. The project of six students was highly appreciated by experts.

Students who successfully completed the program were awarded a certificate and the winners of the first 3 places were awarded cash prizes by "Coders Azerbaijan".

The event was attended by Khazar University Rector Associate Professor Irada Khalilova, Dean of the Faculty of Science and Engineering Dr.Fakhranda Alimardanova, and Computer Science Department Lecturer Behnam Kiani.

At the end, Associate Professor Irada Khalilova congratulated the students and winners who successfully completed the program, and stressed the need for students to continue such projects. Coders Azerbaijan thanked Khazar University for its cooperation and presented the company's gift.

# XƏZƏR UNİVERSİTETİNİN BİR QRUP ƏMƏKDAŞ VƏ TƏLƏBƏLƏRİ *ERASMUS+ PICASP* LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ ŞƏKİ ŞƏHƏRİNƏ SƏFƏRDƏ

# A GROUP OF KHAZAR UNIVERSITY STAFF MEMBERS, STUDENTS VISIT SHEKI WITHIN *ERASMUS+ PICASP* PROJECT



Mayın 14-15-də Xəzər Universitetinin bir qrup əməkdaş və tələbələri *Erasmus+ PICASP* layihəsi çərçivəsində Şəki şəhərinə səfərdə oldular.

Səfərdən əvvəl müxtəlif fakültələrdən seçilmiş 11 tələbə Şəki şəhərinin tarixi və mədəniyyəti haqqında nəzəri biliklərə yiyələnmiş və universitetin Tarix və arxeologiya departamentinin müəllimi Bayram Quliyev tərəfindən xüsusi hazırlanmış 7 saatlıq təlim proqramında iştirak etmişlər.

2 günlük Mədəni irs bələdçiliyi proqramı çərçivəsində Şəki xan Sarayı, Yuxarı Karvansaray, Dulusçuluq emalatxanası, Şəkixanovların evi, Yeraltı hamam, Kiş kilsəsinə səfər olmuş və tələbələr universitetin əməkdaşlarına Şəkinin tarixi və mədəniyyəti haqqında məlumat verərək, bələdçilik etmişlər.

Sonda tələbələr bir neçə nominasiyada Qiymətləndirmə Komissiyası tərəfindən mükafatlandırılmışdır.

On May 14-15, a group of Khazar University staff members and students visited Sheki as part of the *Erasmus+ PICASP* project.

Prior to the visit, 11 students from different faculties gained theoretical knowledge about the history and culture of Sheki and participated in a 7-hour training program specially prepared by Bayram Guliyev, the lecturer at the University's Department of History and Archeology.

Within the framework of the 2-day Cultural Heritage Guide program, Sheki Khans Palace, Upper Caravanserai, Pottery Workshop, Shakikhanov House, Underground Bath, Kish Church were visited and students informed the university staff about the history and culture of Sheki.

At the end, students were awarded by the Evaluation Commission in several nominations.




# DEPARTAMENT MÜDİRİ BAKI SU İNNOVASİYA FORUMUNDA

# DEPARTMENT HEAD AT THE BAKU WATER INNOVATION FORUM

Mayın 17-də "Baku Marriott Hotel Boulevard"- də Bakı Su İnnovasiya Forumu keçirilib.

"Aqualink" MMC-nin təşkilatçılığı, "Nijhuis Saur Industries", "A. O. Smith" və "Hach" şirkətlərinin və "Facemark" MMC-nin təşkilati dəstəyi ilə keçirilən forumda yerli və xarici mütəxəssislər, şirkət rəsmiləri, o cümlədən bu sahədə fəaliyyət göstərən dövlət qurumlarının əməkdaşları iştirak edib və gün ərzində 3 panel üzrə müzakirələr aparılıb.

"Çirkab (tullantı) sularının idarə edilməsi, təkrar emal və ətraf mühitə təsirləri" mövzusuna həsr olunmuş II paneldə Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov çıxış edərək bildirib ki, Azərbaycanda olan çaylar yalnız suvarma və içməli su mənbəyi deyil, onlar dünyanın ən qiymətli balıqlarının yaşadığı yerdir. Azərbaycan 2040-cı ildə çox güclü su stressi yaşayan ölkə olacaq. Yeganə çıxış yolu isə suya qənaət etməkdir. Rövşən Abbasov müxtəlif sualları da cavablandırıb.

Oxu.az və digər saytlar tədbir haqqında xəbər yayımlayıb.

The Baku Water Innovation Forum was held on May 17, at the Baku Marriott Hotel Boulevard.

The forum, coordinated by "Aqualink" LLC and held with the organizational support of "Nijhuis Saur Industries",companies "A.O.Smith" and "Hach" and "Facemark" LLC,was attended by local and foreign experts, company officials, as well as employees of government agencies working in this field and during the day, discussions were held on 3 panels.Speaking at the second panel on "Wastewater Management, Recycling, and Environmental Impacts," Rovshan Abbasov, Head of the Geography and Environment Department at Khazar University, said that the rivers in Azerbaijan are not only a source of irrigation and drinking water, but also a place where the world's most valuable fish live. In 2040, Azerbaijan will be a country experiencing severe water stress. The only way out is to save water. Rovshan Abbasov also answered various questions.

Oxu.az and other sites published news about the event.

*https://oxu.az/press-releases/604405*

## TARİX MÜƏLLİMLİYİ İXTİSASI IV KURS TƏLƏBƏLƏRİNİN "ATƏŞGAH" MƏBƏDİ VƏ "YANARDAĞ"A EKSKURSİYASI



## EXCURSION OF 4TH YEAR HISTORY STUDENTS TO "ATESHGAH" TEMPLE AND "YANARDAGH"

Mayın 17-də Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin Tarix müəllimliyi ixtisası IV kurs tələbələrinin Tarix və arxeologiya departamentinin müəllimi Orxan Zamanovun rəhbərliyi ilə "Atəşgah" məbədi və "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğuna ekskursiya səfəri baş tutmuşdur.

Tələbələrə bələdçilər tərəfindən "Atəşgah" məbədi və "Yanardağ" kompleksi haqqında ətraflı məlumat verilmiş, xatirə şəkilləri çəkilmişdir.

On May 17, 4th year students majoring in History Teaching at Khazar University's Faculty of Humanities, Education, and Social Sciences hosted an excursion to Ateshgah Temple and the Yanardagh State Historical-Cultural and Natural Reserve under the guidance of Orkhan Zamanov, the lecturer at the Department of History and Archeology.

The students were given detailed information about the " Ateshgah" temple and the "Yanardagh" complex by the guides, and photos were taken.







# "ALUMNİ TALK" SİLSİLƏ SEMİNARLARIN DAVAMI

# CONTINUATION OF "ALUMNI TALK" SERIES OF SEMINARS

Mayın 18-də Xəzər Universiteti İnkişaf Mərkəzinin təşkilatçılığı ilə "Alumni Talk" adlı seminarlar silsiləsindən növbəti interaktiv görüş keçirildi. Seminarın qonağı Xəzər Universiteti İqtisadiyyat və menecment fakültəsinin məzunu Ceyran Əfəndi idi. Qeyd edək ki, o, Birləşmiş Ərəb Əmirliklərində yerləşən "AJ Group"un yaradıcısıdır.

Universitetin tələbə və əməkdaşlarının iştirakı ilə keçirilən seminar İnkişaf Mərkəzinin rəhbəri Raziyə İsayevanın iştirakçıları salamlaması və Ceyran Əfəndini təqdim etməsi ilə başladı. Sonra Ceyran Əfəndi öz çıxışına başladı. O, tələbələrə biznes qurarkən başlanğıcdan nələrə diqqət yetirmək, vəziyyət və riskləri necə idarə etmək haqqında öz həyat təcrübələrinə əsaslanan dəyərli tövsiyələr verdi. Xəzər Universitetində təhsili zamanı qazandığı bilik və təcrübədən, başına gələn maraqlı hadisələrdən, iş həyatında olan uğurlarından və səbəblərindən danışdı. Yüksək motivasiya verici və ruhlandırıcı çıxışın ardından sual-cavab sessiyası keçirildi.

Tədbir Xəzər Universitetinin İnkişaf Mərkəzinin rəhbəri Raziyə İsayevanın Ceyran Əfəndiyə və iştirakçılara təşəkkürü ilə yekunlaşdı.

On May 18, the next interactive meeting from the Alumni Talk series of seminars was organized by Khazar University Development Center. The guest of the seminar was Jeyran Efendi, the graduate of Khazar University's School of Economics and Management. She is the founder of the AJ Group in the United Arab Emirates.

The seminar which was attended by the students and staff of the university began with the head of the Development Center Raziya Isayeva's greeting the participants and introducing Jeyran Efendi. Then Jeyran Efendi began her speech. She gave students valuable advice based on her life experiences on what to look for when starting a business and how to manage situations and risks. She spoke about the knowledge and experience she gained while studying at Khazar University, the interesting events that happened to her, her successes in business, and his reasons. After a highly motivating and inspiring speech, a question and answer session was held.

At the end of the event Raziya Isayeva, Head of Khazar University Development Center, expressed her gratitude to Jeyran Efendi and the participants.

# TARİX MÜƏLLİMLİYİ İXTİSASININ II KURS TƏLƏBƏLƏRİ "SURAXANI" GƏMİ-MUZEYİNDƏ

# SECOND YEAR STUDENTS MAJORING IN HISTORY TEACHING AT SURAKHANI SHIP MUSEUM

Mayın 18-də Beynəlxalq muzeylər günü münasibətilə Humanitar, təhsil və sosial elmlər fakültəsinin tarix müəllimliyi ixtisasının II kurs tələbələri Tarix və arxeologiya departamentinin müəllimi Orxan Zamanovun təşkilatçılığı və rəhbərliyi ilə ``Suraxanı ``gəmi-muzeyində olublar.

Səfərdə universitetin müəllimləri - tarix elmləri üzrə fəlsəfə doktorları dosent Roza Arazova və Yaqub Məmmədov iştirak etmişlər.

Tələbələr ümumilikdə 10 zaldan ibarət gəmi-muzeyində bələdçinin müşayiəti ilə müxtəlif maraqlı eksponatlar, gəmi maketləri, şəxsi heyətə aid otaqlar, əşyalar, müxtəlif məlumatlarla tanış olmuşlar. Gəzinti bələdçi və tələbələr arasında diskussiyya ilə keçmişdir. Tələbələrə Azərbaycanın keçdiyi əzəmətli inkişaf yolunu təsvir edən videoçarx göstərilmişdir.

Muzey səfəri zamanı tələbələr arasında muzey tərəfindən hazırlanan müxtəlif oyunlar keçirilmişdir. Qaliblər xüsusi kubok ilə mükafatlandırılmış, tələbələr gəminin kapitanı ilə də görüşmüşlər.

On May 18, 2nd year students majoring in History Teaching at Khazar University's Faculty of Humanities, Education, and Social Sciences hosted an excursion to Surakhani ship-museum on the occasion of International Museum Day under the organization and guidance of Orkhan Zamanov, the lecturer at the Department of History and Archeology.

The visit was attended by university faculty members - Doctors of Philosophy in History, Associate Professor Roza Arazova and Yagub Mammadov.

Accompanied by a guide, the students got acquainted with various interesting exhibits, ship models, personnel rooms, objects and various information in the ship-museum consisting of 10 halls. The museum tour was followed by a discussion between the guide and the students. Students were shown a video describing the great path of development of Azerbaijan.

During the excursion, various games prepared by the museum were held among the students. The winners were awarded a special trophy, and the students also met with the captain of the ship.

# DEPARTAMENT MÜDİRİ ŞUŞADA KEÇİRİLƏN KONFRANSDA

# DEPARTMENT HEAD AT CONFERENCE IN SHUSHA

Mayın 19-20-də Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov Şuşa şəhərində keçirilən "Postmünaqişə humanitar gündəliyinin inkişaf etdirilməsi: mədəni mühitin canlandırılması yolu ilə davamlı inkişaf" (Advancing Post-conflict Humanitarian Agenda: Sustainable development through revitalization of the cultural environment) adlı konfransda iştirak etmişdir. Konfrans Şuşa şəhəri və işğaldan azad olunmuş ərazilərdə mədəni mühitin canlandırılması və dayanıqlı inkişaf məsələlərinə həsr olunmuşdur.

Rövşən Abbasov konfransda "Ekosistem xidmətlərindən dayanıqlı istifadə imkanları və mənəvi dəyərlər" mövzusunda çıxış etmişdir.

On May 19-20, Rovshan Abbasov, Head of the Department of Geography and Environment at Khazar University, participated in a conference in Shusha entitled " Advancing Post-Conflict Humanitarian Agenda: Sustainable Development through the Revitalization of the Cultural Environment." The conference was dedicated to the issues of revitalization of the cultural environment and sustainable development in Shusha and the other liberated territories.

Rovshan Abbasov spoke at the conference on "Sustainable use of ecosystem services and moral values."



# "QANUN" NƏŞRİYYATININ "XƏZƏR"DƏ SƏRGİ - YARMARKASI

Mayın 18-i və 20-də Xəzər Universitetində "Qanun" nəşriyyatının kitab sərgi -yarmarkası təşkil olundu.

Tədbirdə nəşriyyatın əməkdaşları tələbələrə və digər iştirakçıllara "Qanun" nəşriyyatının 1995-ci ildən müstəqil nəşriyyat kimi fəaliyyət göstərməsi, ilk illərdə əsasən hüquq və tərcümə ədəbiyyatı nəşr etməsi və sonrakı dövrdə universal nəşriyyata çevrilərək, "Hər gün yeni bir kitab" devizi ilə işləməsi, həmçinin, sərgi-yarmarkaya çıxarılan kitablar haqqında məlumat verdilər.

Qeyd edək ki, kitablar satışa 30 faiz endirimlə çıxarılmışdı və həm tələbələr, həm də əməkdaşlar nəşriyyatın səyyar xidmətindən məmnunluqla istifadə etdilər.



# EXHIBITION-FAIR OF "QANUN" PUBLISHING HOUSE AT KHAZAR UNIVERSITY

On May 18 and 20, a book exhibition-fair organized by "Qanun" Publishing House was organized at Khazar University.

Employees of the publishing house told students and other participants that "Qanun" publishing house has been operating as an independent publishing house since 1995, publishing legal and translated literature in the first years, and later became a universal publishing house under the motto "A new book every day" and gave information about the books exhibited at the fair.

It should be noted that the books were sold at a discount of 30 percent, and both students and staff enjoyed the mobile services of the publishing house.

# TƏHSİL TƏLƏBƏ KREDİTİ FONDUNUN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

# MEETING WITH EDUCATION STUDENT LOAN FUND REPRESENTATIVES





Mayın 24-də Xəzər Universitetində Azərbaycan Respublikası Təhsil Nazirliyi Təhsil Tələbə Krediti Fondunun nümayəndələri ilə görüş keçirildi. Görüşü universitetin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli açaraq, təhsil krediti haqqında toplaşanlara ümumi məlumat verdi.

Fondun Maliyyə şöbəsinin müdiri Tehranağa Abdullayev və əməkdaşı Ağca Məmmədova təhsil kreditinin şərtləri haqqında geniş izahat verdilər. Sonda Fondun nümayəndələri tələbələrin çoxsaylı suallarını cavablandırdılar. Görüşdə universitetin tədris işləri üzrə prorektoru Məhəmməd Nuriyev iştirak etdi.

On May 24, a meeting was held at Khazar University with representatives of the Education Student Loan Fund of the Ministry of Education of the Republic of Azerbaijan. The meeting was opened by Alovsat Amirbeyli, Director of Public Relations and Media of the University, who gave general information about the education loan.

The head of the Fund's Finance Department Tehranaga Abdullayev and an employee Agja Mammadova gave a detailed explanation of the terms of the education loan. In the end, representatives of the Foundation answered numerous questions from students. The meeting was attended by Vice-Rector for Academic Affairs Mahammad Nuriyev.









# XƏZƏR UNİVERSİTETİNDƏ "MİLLİ ARDICIL TƏRCÜMƏ MÜSABİQƏSİ"

# "NATIONAL CONSECUTIVE INTERPRETATION CONTEST" AT KHAZAR UNIVERSITY

Mayın 24-də Xəzər Universitetinin Mərmər salonunda İngilis dili və ədəbiyyatı departamentinin təşkil etdiyi "Milli Ardıcıl Tərcümə Müsabiqəsi"nin finalı keçirildi. Müsabiqədə respublikanın 5 universitetindən tərcümə ixtisası üzrə təhsil alan 5 finalçı iştirak etdi. Qeyd edək ki, finalçılar üç mərhələli seçim əsasında müəyyən olunmuşdu.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlının açılış nitqi ilə başlayan tədbirdə departamentin koordinatoru Milana Abbasova və baş müəllimi Firəngiz Nəsirova da çıxış etdilər.

Sonra iştirakçılar ingilis və Azərbaycan dilində olan canlı nitqləri ardıcıl tərcümə etdilər. Qonaq natiqlər universitetin Beynəlxalq əlaqələr üzrə prorektoru Vlad Vernygora və Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov idi. Müzakirə şəkilində aparılan canlı nitqi iştirakçılar hər iki dilə tərcümə etdilər.

5 nəfərdən ibarət münsiflər heyətinin tərkibində prof. Qılıncxan Bayramov (Azərbaycan Dillər Universiteti), İsrafil Xakiyev (Gənc Tərcüməçilər Assosiasiyası), Firəngiz Nəsirova (Xəzər Univeristeti, İngilis dili və ədəbiyyatı departamenti), İrina Orucova (Azərbnaycan Dillər Universiteti və Xəzər Universiteti) və Zamirə Qurbanova (Xəzər Univeristeti, İngilis dili və ədəbiyyatı departamenti) var idi. Münsiflər heyəti iştirakçıları əvvəlcədən müəyyən olunmuş meyarlar əsasında qiymətləndirdi.

On May 24, the final of the "National Consecutive Interpretation Contest" organized by the Department of English Language and Literature was held at Khazar University's Marble Hall. 5 finalists majoring in translation from 5 universities of the country took part in the contest. Note that the finalists were determined on the basis of a three-stage selection.

In the event, which began with an introductory speech by Professor, Academician Hamlet Isakhanli, founder of Khazar University and chairman of the Board of Directors and Trustees, Milana Abbasova, Department Coordinator, and Firangiz Nasirova, Senior Lecturer delivered speeches as well. Then the participants translated live speeches in English and Azerbaijani. The guest speakers were Vlad Vernygora, Vice-Rector for International Relations, and Rovshan Abbasov, Head of the Department of Geography and Environment. The live speech in the form of a discussion was translated by the participants into both languages. The five-member contest- jury consisted of Kilinckhan Bayramov (Azerbaijan University of Languages), Israfil Khakiyev (Young Translators Association), Firangiz Nasirova (Khazar University, Department of English Language and Literature), Irina Orujova (Azerbaijan University of Languages and Khazar University) and Zamira Gurbanova (Khazar University, Department of English Language and Literature). The jury evaluated the participants based on pre-defined criteria.

Müsabiqənin qalibləri aşağıdakılardır:

1-ci yer: Fidan Cabirova – Azərbaycan Dillər Universitetinin Tərcümə fakültəsinin Tərcümə (ingilis dili) ixtisasının dördüncü kurs tələbəsi;

2-ci yer: Nərmin Abbaslı – Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin Tərcümə ixtisasının dördüncü kurs tələbəsi;

3-cü yer: Nərgiz Səfərova – Azərbaycan Turizm və Menecment Universitetinin Turizm və Qonaqpərvərlik fakültəsinin Tərcümə ixtisasının üçüncü kurs tələbəsi.

Qaliblərə sertifikat və kristal plaket təqdim edildi.

Qeyd edək ki, bu cür müsabiqə Azərbaycanda ilk dəfə təşkil olunmuşdu.







The winners of the contest are:

1st place: Fidan Cabirova - fourth year student majoring in Translation (English) at the Faculty of Translation of the Azerbaijan University of Languages;

2nd place: Narmin Abbasli, a fourth-year student majoring in Translation at Khazar University's Faculty of Humanities, Education, and Social Sciences;

3rd place: Nargiz Safarova - a third-year student majoring in Translation, Faculty of Tourism and Hospitality, Azerbaijan University of Tourism and Management.

The winners were awarded certificates and crystal plaques. It should be noted that the contest was first of its kind in Azerbaijan.






## CANON ŞİRKƏTİNİN NÖVBƏTİ TƏQDİMATI

Mayın 24-də Canon şirkətinin Azərbaycandakı nümayəndəliyi Xəzər Universiteti ilə əməkdaşlıq çərçivəsində Canon Academynin növbəti təqdimatını keçirmişdir. Tədbirdə Canon şirkətinin biznesin inkişafı üzrə meneceri Valeh Məhərrəmov, menecer köməkçisi Mehbarə Hüseynova, fotoqraflar, Xəzər Universitetinin tələbələri iştirak etmişlər.

## NEXT PRESENTATION OF THE COMPANY CANON

On May 24, Canon's Azerbaijan office hosted another presentation of Canon Academy in partnership with Khazar University. The event was attended by Valeh Maharramov, Canon's Business Development Manager, Mehbara Huseynova, Assistant Manager, photographers, and Khazar University students.



"Kompozisiya və kameralar" mövzusunda olan təqdimatda tələbələrə kameraların əsas xüsusiyyətləri, rəng kompozisiyaları, çərçivənin əsasları və sadə kompozisiya üsulları haqqında nəzəri məlumatlar verilmişdir.

In the presentation on "Composition and cameras", students were given theoretical information about the main features of cameras, color compositions, the basics of framing and simple composition methods.





# ELMİ ŞURANIN NÖVBƏTİ İCLASI
# NEXT MEETING OF SCIENTIFIC COUNCIL

Mayın 24-də Xəzər Universiteti Elmi şurasının növbəti iclası keçirildi.

İclası Universitetin rektoru dosent İradə Xəlilova açaraq, gündəlikdəki məsələləri elmi şura üzvlərinin nəzərinə çatdırdı. Gündəlikdəki ilk məsələ ilə bağlı İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov, Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əlimərdanova, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekan müavini Aygün Verdiyeva, Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekanı Səidə Şərifova və İqtisadiyyat və biznes yüksək təhsil fakültəsinin dekanı İnqilab Əhmədov məlumat verdilər. Universitetin məzunu olan bakalavriatura və magistratura tələbələri, onların qiymətləri, ixtisasları və s. haqqında ətraflı məlumat dinlənildi və məsələlər barədə müzakirələr aparıldı.

Sonra İqtisadiyyat və biznes yüksək təhsil fakültəsinin magistratura və doktorantura tələbələrinin tezis və dissertasiyalarının mövzuları və elmi rəhbərlərinin təsdiqi ilə bağlı məsələ fakültə dekanı tərəfindən elmi şura üzvlərinə çatdırıldı, mövzularla bağlı müzakirələr oldu.

Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekanının təqdimatı ilə fakültənin bir əcnəbi doktorantura tələbəsinin elmi rəhbərinin dəyişdirilməsi məsələsinə baxıldı.

Daha sonra elmi katib tərəfindən universitetin Təhsilin təşkili və planlaşdırılması və Analiz və funksional analiz" ixtisası üzrə iki doktorantının dissertasiya işinin ilkin müzakirəsinin protokolu şura üzvlərinin nəzərinə çatdırıldı.

Cari məsələlərdə elmi nəşrlərlə bağlı beynəlxalq reytinq göstəricilərinin yaxşılaşdırılması ilə əlaqədar 2022-ci il üzrə Yol Xəritəsinin bəndlərinin icrası məsələləri müzakirə olundu və məsələnin xüsusi iclasda yenidən müzakirəsinə qərar verildi.

Elmi şuranın gündəliyindəki məsələlər barədə müsbət qərarlar qəbul edildi.

On May 24, 2022, the next meeting of the Scientific Council of Khazar University was held.

The meeting was opened by the rector of the university, associate professor Irada Khalilova, who brought the issues on the agenda to the attention of the members of the scientific council. Dean of the School of Economics and Management Jeyhun Mammadov, Dean of the School of Science and Engineering Fakhranda Alimardanova, Deputy Dean of the School of Humanities, Education and Social Sciences Aygun Verdiyeva, Dean of the Gradute School of Science, Arts and Technology Saida Sharifova and Dean of the Gradute School of Economics and Business Ingilab Ahmadov provided information on the first issue on agenda. Detailed information about undergraduate and graduate students of the university, their grades, specialties et c. was heard and issues were discussed.

Then, the issues related to the topics of theses and dissertations of master's and doctoral students of the Graduate School of Economics and Business and the approval of their supervisors were brought to the attention of the members of the scientific council by the dean of the faculty , and discussions were held.

With the presentation of the Dean of the Graduate School of Science, Arts and Technology, the issue of changing the scientific supervisor of a foreign doctoral student of the faculty was considered.

Later, the minutes of the initial discussion of the dissertation of two doctoral students of the specialty "Organization and planning of education and Analysis and functional analysis" of the university were presented to the members of the council by the scientific secretary.

In connection with the improvement of the international ranking of scientific publications on current issues, the implementation of the Roadmap for 2022 was discussed and it was decided to reconsider the issue at a special meeting. Positive decisions were made on the issues on the agenda of the Scientific Council.

## POLŞA UNİVERSİTETLƏRİ İLƏ ƏMƏKDAŞLIQ

Aprelin 29-da Xəzər Universitetinin Psixologiya departamenti ilə Polşanın Katovitsa şəhərindəki Sileziya Universiteti və Polşanın Qdansk Universiteti arasında tədqiqat sahəsində əməkdaşlıq müqaviləsi imzalanmışdır. Tədqiqat layihəsinin mövzusu işdən asılılıq və bununla bağlı sağlamlıq problemlərində makro, mezo və mikro səviyyəli amillərin rolu haqqındadır.

Bu müqavilə çərçivəsində tədqiqat işi aparılacaq və bu tədqiqat əsasında üç həmmüəlliflik nəşri hazırlanacaqdır.

## XƏZƏR UNİVERSİTETİNİN PROREKTORU ERASMUS + ECAR LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ İSVEÇDƏ SƏFƏRDƏ OLMUŞDUR

Xəzər Universitetinin tərəfdaş, Bakı Biznes Universitetinin koordinator olduğu və Avropa Komissiyası tərəfindən maliyyələşdirilən Erasmus+ ECAR "Azərbaycanda Rektorlar Konfransının yaradılması" layihəsi çərçivəsində mayın 16-20-də "Ali təhsil sisteminin inkişafında rektorlar konfransının rolu" adlı növbəti seminar İsveçin nüfuzlu universitetlərindən biri olan Kral Texnologiya Universitetində keçirilmişdir.

Rektorlar konfransının yaradılması və ali təhsilin inkişaf etdirilməsi üçün Avropa təcrübəsinin öyrənilməsinə həsr edilən seminarda Azərbaycan Respublikası Təhsil Nazirliyinin nümayəndəsi, 15 Azərbaycan universitetindən rektor və prorektorlar, o cümlədən Xəzər Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru Vlad Vernygora və digər rəhbər şəxslər iştirak etmişlər.

Seminarda Avropa Universitetlər Birliyinin Baş katibinin müavini Monika Steinel`in "Sərhədsiz Universitetlər- 2030 - gələcəyə baxış" mövzusunda təqdimatı olmuşdur.

## PSİXOLOGİYA DEPARTAMENTİNİN KOORDİNATORU BEYNƏLXALQ KONFRANSDA

Mayın 20-də Xəzər Universiteti Psixologiya departamentinin koordinatoru Mələk Kərimova Türkiyənin Samsun şəhərində onlayn təşkil edilən "7-ci Beynəlxalq yenilikçi elmi yanaşmalar" konfransında "Neyroestetika: sənət əsərlərinin beyinə təsiri" mövzusunda çıxış etmişdir. Tədqiqatçı yeni sahələrdən olan neyroestetika haqqında məlumat verərək, sənət əsərini dəyərləndirən şəxslərin beyinlərində baş verən dəyişiklikləri əks etdirən məlumatları təhlil etmişdir.

## COOPERATION WITH POLISH UNIVERSITIES

The research collaboration agreement between Khazar University Psychology Department, University of Silesia in Katowice, Poland, and the University of Gdansk, Poland was signed on April 29, . The topic of the research project is about the role of macro-,meso-, and micro-level factors in work addiction and related health problems.

In the course of this agreement, the research study will be conducted and three co-authored publications will be prepared on the basis of this study.

## VICE RECTOR OF KHAZAR UNIVERSITY VISITS SWEDEN WITHIN ERASMUS+ ECAR PROJECT

The next seminar on "The Role of the Rectors 'Conference in the Development of the Higher Education System" on May 16-20, as part of the Erasmus+ ECAR "Establishment of Rectors' Conference in Azerbaijan" project to which Khazar University is a partner, coordinated by Baku Business University and funded by the European Commission, was held at the Royal University of Technology, one of Sweden's leading universities.

A representative of the Ministry of Education of the Republic of Azerbaijan, rectors and vice-rectors from 15 Azerbaijani universities, as well as Khazar University Vice-Rector for International Relations Vlad Vernygora and other administrative members attended the seminar, which was dedicated to establishing a rectors' conference and studying European experience in developing higher education.

Monica Steinel, Deputy Secretary General of the European University Association, made a presentation on "Universities without Walls – A vision for 2030".

## COORDINATOR OF PSYCHOLOGY DEPARTMENT AT INTERNATIONAL CONFERENCE

On May 20, Malak Karimova, Coordinator of Psychology Department at Khazar University, spoke at the 7th International Innovative Scientific Approaches Conference in Samsun, Turkey, on "Neuroesthetics: The Impact of Art on the Brain." The researcher analyzed the information that reflects the changes in the brains of those who value the work of art, giving information about neuroesthetics, a new field.

## "XƏZƏR"İN MÜƏLLİMİ "DİALEKTİV DAVRANIŞ TERAPİYASI: TEXNİKALAR VƏ STRATEGİYALAR" ADLI TƏLİMDƏ

## KHAZAR UNIVERSITY FACULTY MEMBER IN "DIALECTICAL BEHAVIORAL THERAPY: TECHNIQUES AND STRATEGIES" TRAINING

Mayın 20-də Xəzər Universitetinin müəllimi və doktorantı Nilufər Əlizadə Amerika Koqnitiv Davranış Terapiyası Assosiasiyasının təşkil etdiyi, Rutgers Universitetinin Psixologiya departamentinin rəhbəri Dr. Scott Valtman tərəfindən keçirilən "Dialektiv davranış terapiyası: texnikalar və strategiyalar" adlı təlimdə iştirak edərək, sertifikat almışdır. Qeyd edək ki, təlim və sertifikat Amerika Psixoloqlar Assosiasiyasının "Psixoloqların davamlı təhsili" proqramı tərəfindən dəstəklənir və tanınır.

Təlimdə Dialektiv davranış terapiyasının fundamental 4 mərhələsi haqqında tədqiqat işlərinin nəticələri paylaşıldıqdan sonra, müxtəlif situasiyalarda psixoterapevtin işlədə biləcəyi texnikalar praktiki yollarla nümayiş edilmişdir.

On May 20, Nilufar Alizadeh, the lecturer and doctoral student at Khazar University, participated in a training on "Dialectical Behavioral Therapy: Techniques and Strategies" organized by the American Cognitive Behavioral Therapy Association and conducted by Dr. Scott Waltman, Head of Psychology at Rutgers University and received a certificate. It should be noted that the training and certification is supported and recognized by the American Psychologists Association's "Continuing Education of Psychologists" program.

After sharing the results of research on the 4 fundamental stages of dialectical behavior therapy, the techniques that a psychotherapist can use in different situations were demonstrated in a practical way.

## DUBLİN UNİVERSİTETİ PROFESSORUNUN "EXPERT TALKS" TƏDBİRİNDƏ ÇIXIŞI

## SPEECH BY PROFESSOR OF UNIVERSITY COLLEGE DUBLIN AT EXPERT TALKS

Mayın 20-də Təhsil departamenti və Təlim-Tədris Mərkəzinin birgə təşkilatçılığı ilə "Expert Talks" tədbirlər seriyasının növbəti görüşü keçirildi. Budəfəki görüşün qonağı İrlandiyanın Dublin Universitetinin (Universioty College Dublin) professoru Conor Galvin oldu. Tədqiqat metodologiyasının düzgün qurulması və elmi tədqiqat üsullarının düzgün seçilməsi haqqında çıxış edən professor Galvin görüşün sonunda iştirakçıların suallarını cavablandırdı və elmi tədqiqatın düzgün təşkili haqqında öz məsləhətlərini və tövsiyələrini verdi.

Professor Galvin hal-hazırda Dublin Universitetinin təhsil fakültəsində mühazirəçi və doktorantura proqramının koordinatoru vəzifəsində çalışır. O, eyni zamanda Avropa Birliyinin təhsil siyasəti üzrə məsləhətçilərindən biridir.

Qeyd edək ki, Teams platforması üzərində online şəkildə təşkil olunan görüşdə Azərbaycanla yanaşı Türkiyə, Qazaxıstan, Əfqanıstan və İrlandiyadan olmaqla 60-dan çox dinləyici iştirak edib.

On May 20, the next meeting of the Expert Talks series of events was organized by the Department of Education and Teaching and Learning Center. This time the guest of the meeting was Conor Galvin, Professor of the University College Dublin, Ireland. At the end of the meeting, Professor Galvin answered the questions of the participants and gave his advice and recommendations on the proper organization of scientific research.

Professor Galvin currently works as a lecturer and coordinator of doctoral programs at the University College Dublin. He is also one of the EU's education policy advisers.

The online meeting on the Teams platform was attended by more than 60 listeners from Azerbaijan, Turkey, Kazakhstan, Afghanistan and Ireland.








# ŞAMAXI ŞƏHƏRİ 2022-Cİ İL ÜÇÜN TÜRK DÜNYASININ TURİZM PAYTAXTI SEÇİLİB





# QƏBUL QAYDALARI

## DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. **http://e.dunyaschool.az/sagirdqebulu**

Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.

Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.

İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.

Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).

Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.

Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

## DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.

Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür.

Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

### QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynın iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48

XƏZƏR UNİVERSİTETİ

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

# NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

## TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

* Kompüter elmləri
* Kompüter mühəndisliyi
* Neft-qaz mühəndisliyi
* İnşaat mühəndisliyi
* Radiotexnika və telekommunikasiya mühəndisliyi
* Elektrik və elektronika mühəndisliyi
* Kimya mühəndisliyi
* Mexanika mühəndisliyi
* Riyaziyyat və informasiya müəllimliyi
* Fizika müəllimliyi

### 2 QRUP

* Mühasibat
* Maliyyə
* İqtisadiyyat
* Menecment
* Marketinq
* Biznesin idarə edilməsi
* Turizm işinin təşkili
* Regionşünaslıq (Avropa)
* Beynəlxalq münasibətlər
* Coğrafiya müəllimliyi

### 3 QRUP

* İngilis dili və ədəbiyyatı
* Azərbaycan dili və ədəbiyyatı
* Tərcümə (ingilis dili)
* Politologiya
* İngilis dili müəllimliyi
* Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
* İbtidai sinif müəllimliyi
* Tarix müəllimliyi
* Tarix və coğrafiya müəllimliyi

### 4 QRUP

* Kimya müəllimliyi
* Biologiya müəllimliyi
* Kimya və biologiya müəllimliyi
* Psixologiya
* Baytarlıq təbabəti

### 5 QRUP

* Dizayn
* Təsviri incəsənət müəllimliyi